

## Baş nazir qərar imzaladı

*Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların sayı artırılıb. "Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.Qərara əsasən, təsnifata Ümumi fiziki hazırlıq, Kütləvi-sağlamlaşdırıcı idman və Adaptiv bədən tərbiyəsi ixtisasları daxil...*

Səh.2


# UNİKAL

№14 (2148) 14 aprel 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Elman Rüstəmovun yüz minlərlə manatlıq nöqsanları

### Sabiq baş bankirin niyə vaxtından əvvəl postunu itirdiyi üzə çıxır

*Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası ayrı-ayrı dövlət qurumlarında vəsaitlərin istifadəsi üzrə auditin nəticələrini açıqlayıb. Qurumun hesabatından aydınlaşıb ki, 2022-ci ildə aparılan yoxlama subyektlərindən biri də Azərbaycan Mərkəzi Bankı olub. Daha dəqiq desək, Palata Azərbaycan Mərkəzi Bankının maliyyə-təsərrüfat fəaliyyətinin auditini keçirib. Auditin nəticələri isə heç də ürəkaçan deyil. Öncə onu qeyd edək ki, yoxlama Mərkəzi Bankın 2021-ci il və 2022-ci ilin 6 ayını əhatə edib. Xatırladaq ki, 2022-ci ilin mayında Mərkəzi Bankın rəhbərliyi dəyişib - Elman Rüstəmov vəzifəsini tərk edib, onun yerinə Taleh Kazımov təyinat alıb. Palatanın yoxlaması isə 2021 və 2022-ci ilin ilk yarısını, yəni məhz Elman Rüstəmovun rəhbər olduğu dövrü əhatə edir.*

Səh.8



Səh.9

## Yeni toqquşma, yoxsa sülh üçün növbəti şans...

## "Azərbaycan tərəfi bölgədə öz mövqelərini dəqiqləşdirir"



*Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, ermənilərin aprelin 11-də hansı məqsədlə təxribat törətməsindən, Avropa İttifaqının "mülki" missiyasının Ermənistana gəlməsindən sonra ermənilərin törətdiyi təxribatların sayının artmasından...*

Səh.4

## Zakir Qaralovun 14 milyon manatlıq borcu



*Yola salmaq üzrə olduğumuz həftə "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC -nin dövlət qarşısında vergi borcunun olduğu üzə çıxdı. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə əsasən məlumat verilib. Məlumatdan belə aydın olur ki, "Akkord Sənaye Tikinti...*

Səh.5

## Azərbaycançılıq ideyası milli amala çevriləndə...



*Milli ideologiyasız heç bir millət ayaqda dura bilməz! Azərbaycan xalqını da illərdir ayaqda saxlayan, onun milli kimliyi, milli maraqları, qoruyub yaşatdığı milli-mənəvi dəyərləridir. Xalqımızın əsrlərdir nəsildən-nəsilə ötürdüyü milli dəyərlər sistemi azərbaycançılıq ideyasının əsas xəttini təşkil edir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilk dəfə azərbaycançılıq ideyasını...*

Səh.11

# Əməkdar artist: "60 manata aktyor ailə saxlaya bilər?!"



***"Sənət adamlarının 2006-cı ildən aldığı qonorar 60 manatdır. Həmin ildə bəlkə də bu rəqəm düzgün idi. Amma indi 60 manata aktyor ailə saxlaya bilərmi?!".***

"Unikal" report-a istinadən xəbər verir ki, bu fikirləri Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru, Əməkdar artist Nicat Kazımov "Azərbaycan teatrı - 150: inkişaf perspektivləri" mövzusunda keçirilən Teatr Forumunda çıxışında deyib.

N.Kazımov mükafat və fəxri adların yaşa görə verilməməli olduğuna bir daha diqqət çəkib: "Adlar sənətdəki xidmətlərə görə olmalıdır. İllərlə səhnəyə çıxmayan adama fəxri ad verilir. Bu necə olur?! 95 yaşı olan Gənc Tamaşaçılar Teatrı və 92 yaşı olan Kukla teatrının Akademik statusu yoxdur. Axı niyə?! Bəyəm həmin teatrlarda işləyənlər daha az əziyyət çəkir və az tamaşa oynayır?! Bu, birbaşa teatr işçilərinin dolanışığı ilə bağlı olan məsələdir. Bu səbəbdən nəzərə almağınızı xahiş edirəm".

# "Bacım min modelə dəyər" - Gülyaz Məmmədova



***"Bir-birimizin paltarını heç vaxt geyinməmişik. Çünki səhnəyə bir çıxmışıq. Bəzilərini ehtiyacı olanlara vermişik, bəziləri isə qalır. Ən böyük arzumuz ev muzeyimizin olmasıdır. Bütün qazandığımız mükafatları ora qoymaq istəyirik".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Gülyanaq Məmmədova "Şou-xəbər"ə açıqlamasında deyib. Xanəndə ev muzeylərinin olmasını arzuladığını deyib.

Xalq artisti Gülyaz Məmmədova da bacısının sözünü təsdiqləyərək, ən böyük arzusunun bu olduğunu deyib. Xanəndə daha sonra üzündəki dəyişikliklərdən danışıb: "Qulluq və mezoterapiya etdirirəm. Burnum olduğu kimidir. əməliyyat etdirməmişəm. Qorxuram. Allah nə verib odur. Süni gözəllik istəmirəm. Çəki alanda da idmanla atıram. Düzdür, hamı deyir, kökəlmək yaraşır. Amma səhnəyə yaraşmır. Pulumu nəğmələrimə xərcləyirəm. Ürəyin cavandırsa, üzün də cavandır".

Gülyaz daha sonra bacısının ünvanına təriflər yağdırıb. O, "Mənim bacım modeldir. Onun bir səhnəyə çıxmağı var ki, min modelə dəyər" sözlərini əlavə edib.



# Səidə Dadaşova təcili əməliyyat olunacaq

***Xəbər verdiyimiz kimi, müğənni Səidə Dadaşovanın anidən səhhəti pisləşib və təcili olaraq xəstəxanaya yerləşdirilib.***

Milli.Az xəbər verir ki, sənətçinin sağlamlıq vəziyyəti ilə bağlı məlumat əldə etmək üçün Bizim.Media-nın əməkdaşı S.Dadaşovanın həyat yoldaşı Məhəmməd (Maqa) bəylə əlaqə saxlayıb.

O, müğənninin səhhətini belə şərh edib: "Hazırda həkimin otağındayam. Həyat yoldaşım Səidə xanım təcili olaraq əməliyyata gedir. Vəziyyəti ağırdır. Əlavə sizə informasiya verə bilməyəcəyəm".

# "Elə bilirdim ki, reklam fasiləsidir, sən demə efirdə danışır" - İlkin Əhmədov



***"Teatrımızın keçmiş rəhbəri Akif müəllim çox ziyalı bir şəxsiyyətdir. O işinin peşəkarıdır. Başqa bir sahədə dövlətimizin göstərişi ilə işini davam etdirir. Teatrımıza təyin olunan xalq artisti Yusif Eyvazov da hədsiz dərəcədə alicənab, işini bilən, intelektual və əsl mədəniyyətə layiq bir şəxsdir. Onunla bir neçə dəfə görüşlərimiz də olub. Opera və Balet teatrında çox böyük irəliləyişlər gözlənilir. Dünən bizə bəzi planları açıqladı. Bu birbaşa operamızın dünyaya çıxışı deməkdir. İnanıram ki, hər şey daha da yaxşı olacaq".***

"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında əməkdar artist İlkin Əhmədov deyib. Tanınmış xanəndə bu gün Space kanalında aparıcı Rövşanə Ağasəfqızının onun ünvanına işlətdiyi sözlərə münasibətini də bildirib.

"Ona heç kim ixtiyar verməyib ki, canlı efirdə elə sözlər danışsın. Olar elə danışmaq? Gecikməyim normal haldır, bu dəqiqə ölkəmizdə beynəlxalq yarışlara, forumlara hazırlıq gedir. Buna görə də bəzi yollarda sıxlıq olur. Bilərəkdən niyə gecikim ki? 20-25 dəqiqə gecikməyimi, qloballaşdırıb, efirdən, ona verilən səlahiyyətdən istifadə edib danışmağa heç kimin ixtiyarı yoxdur. Ona kim ixtiyar verib ki, mənim adımdan danışsın və desin ki, "İlkin xalqa hörmətsizlik edib". Bu ixtiyarı ona kim verib? Televiziyanın rəhbəri Vado Korovin yaxşı, mədəni insandır. Heç kim başından böyük danışa bilməz. Bu danışığına görə onunla başqa cür də danışa bilərəm, amma xanımdır. O danışanda elə bilirdim ki, reklam fasiləsidir. Sən demə bütün bunları efirdə danışır. Ümumiyyətlə televiziyalardan bu tipli insanları xaric etsinlər. Qalmaqal, olay yaradan, cılız mahnılar oxuyan müğənniləri efirlərə qoymasınlar. Bu mənim əlimdə olan məsələ deyil. Məsul şəxslər özləri ölçü götürməlidirlər. Efirlərdə bu cür nöqsanlara yol vermək olmaz. Efirləri izləməyə sözün düzü vaxtım olmur. Heç sosial şəbəkələrdən də istifadə etmirəm. Həm Beynəlxalq Muğam Mərkəzində, həm Opera və Balet teatrında, həm də ki, pedaqoji fəaliyyətlə məşğulam. Qalmaqalları, olayları izləməyə vaxtım olmur. O qədər efirlər olub ki, gecikmişəm, hörmətlə də qarşılayıblar. Hətta yarım saat da gecikmişəm, efirdə tamaşaçıdan üzr istəyib, mahnılarımı səsləndirməyə başlamışam" deyə xanəndə bildirib.



## Azərbaycan XİN Fransaya cavab verdi

***Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Ermənistan tərəfinin 11 aprel tarixində Laçın rayonu istiqamətində yerləşən mövqelərimizə qarşı təxribatı ilə əlaqədar Ermənistanı dəstəkləyən 12 aprel tarixli bəyanatı reallığı əks etdirmir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

"25 ilə yaxın müddətdə Azərbaycan-Ermənistan münaqişəsində vasitəçi olarkən Ermənistanın təcavüzünə və işğalçı siyasətinə qiymət verməyən, münaqişənin həllinə çalışmayan, Azərbaycanın işğala son qoyaraq münaqişəni təkbaşına həll etməsindən sonra ölkəmizə qarşı qarayaxma kampaniyası aparan Fransa bu bəyanatla növbəti dəfə qeyri-ədalətli mövqe nümayiş etdirib.

Üçtərəfli bəyanata və Fransa Prezidentinin də iştirakçısı olduğu Praqa görüşünün nəticələrinə uyğun olaraq Ermənistanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə çağırmayan, Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini çıxarmağı Ermənistandan tələb etməyən Fransa tərəfinin birtərəfli əsasda yalnız Ermənistanın ərazi bütövlüyünə hörmət edilməsinin vacib olduğunu bəyanatda bildirməsi Fransanın ölkəmizə qarşı qərəzinin nümunəsidir.

Fransa tərəfini, Ermənistanı növbəti təxribatlara təhrik edən, revanşist qüvvələrə dəstək verən bu kimi bəyanatlardan çəkinməyə çağırırıq", - deyə bəyanatda qeyd olunub.

## "Vəhşi, barbar biz yox, ermənilərdir" - Deputat

***"Azərbaycan əsgərinin vəhşicəsinə döyülməsi, qətldə günahlandırılması erməni xalqının əsil mahiyyətini tam əks etdirir".***

"Unikal" xəbər verir ki, bunu deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, illər keçib, bu xalqın mahiyyəti və xəstə təxəyyülü dəyişməyib:

"Görünən odur ki, heç zaman dəyişməyəcək. Ona görə tariximizi yaxşı öyrənib, ciddi nəticələr çıxarmalıyıq. Tarix xalqlar başlarına gələn faciələri unutmayanda təkrarlanmır. Azərbaycanlılar heç vaxt ermənilərlə belə vəhşi davranmayıblar, əksinə yaralı erməni əsgərinə ilkin tibbi yardım göstəriblər. Çünki bizim dinimiz, mədəniyyətimiz bizə digər xalqlara qarşı vəhşiliyi təbliğ etmir.

Bu həm də onu göstərir ki, Ermənistan, erməni xalqı sülhə hazır deyil. Tarixin bütün dövrlərində olduğu kimi, bu gün də erməni xalqı qisas və düşmənçilik hissi ilə yaşayır. Avropa Parlamenti, Fransa və Ermənistanın digər havadarları bu vəhşiliyə münasibət bildirsinlər, bu barbarlığı pisləsinlər. Əsil vəhşilik və barbarlıq budur. Vəhşi, barbar biz yox, ermənilərdir".

***Seymur Əli***

# Elman Rüstəmovun yüz minlərlə manatlıq nöqsanları

## Sabiq baş bankirin niyə vaxtından əvvəl postunu itirdiyi üzə çıxır

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası ayrı-ayrı dövlət qurumlarında vəsaitlərin istifadəsi üzrə auditin nəticələrini açıqlayıb. Qurumun hesabatından aydınlaşıb ki, 2022-ci ildə aparılan yoxlama subyektlərindən biri də Azərbaycan Mərkəzi Bankı olub. Daha dəqiq desək, Palata Azərbaycan Mərkəzi Bankının maliyyə-təsərrüfat fəaliyyətinin auditini keçirib. Auditin nəticələri isə heç də ürəkaçan deyil.***

Öncə onu qeyd edək ki, yoxlama Mərkəzi Bankın 2021-ci il və 2022-ci ilin 6 ayını əhatə edib. Xatırladaq ki, 2022-ci ilin mayında Mərkəzi Bankın rəhbərliyi dəyişib - Elman Rüstəmov vəzifəsini tərk edib, onun yerinə Taleh Kazımov təyinat alıb. Palatanın yoxlaması isə 2021 və 2022-ci ilin ilk yarısını, yəni məhz Elman Rüstəmovun rəhbər olduğu dövrü əhatə edir.

Audit nəticəsində yüz minlərlə manatlıq nöqsanlar aşkarlanıb. Məsələn, Mərkəzi Bankın ayrı-ayrı illər və obyektlər üzrə İdarə Heyəti tərəfindən təsdiq edilmiş investisiya büdcəsində hər il üçün nəzərdə tutulan investisiya vəsaitləri müvafiq il ərzində istifadə olunmayıb, yaxud müvafiq ilin büdcəsində nəzərdə tutulmadığı halda, investisiya xərclərinə yol verilib. Layihəsmeta sənədlərinə ekspertiza rəyi alınmadan, tikintiyə müəllif nəzarəti təmin olunmadan və tikintinin ehtimal edilən qiyməti hesablanmadan tikinti işlərinə başlanılıb. Üstəlik, obyektin tikintisinin başa çatmasını rəsmiləşdirən "İstismara icazə Aktı" tərtib və təsdiq edilməyib. Tikinti işləri tam başa çatdıqdan sonra isə qanunvericiliyin tələblərinə uyğun sənədləşmə aparılmayıb.



Bundan başqa, Hesablama Palatası aşkar edib ki, mühasibat uçotu üzrə uzunmüddətli aktivlərə hesablanmış amortizasiya xərclərinə görə qalıq məbləği göstəriciləri ilə 31.12.2021-ci il tarixinə tərtib edilən illik maliyyə hesabatlarının və "Dövlət əmlakının qorunub saxlanması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat"ın göstəriciləri arasında uyğunsuzluqlar olub. Yəni 276,4 min manat dəyərində olan əsas vəsaitlər "Kompüter və avadanlıqlar" sinfində uçota alınmalı olduğu halda, "Mebel və avadanlıqlar" sinfində uçota alınıb. Yaxud, "Mərkəzi Bankın yeni inzibati binasının tikintisi" obyekti ilə əlaqədar tikinti-quraşdırma işləri üzrə 103 358,0 min manat məbləğində investisiya xərcləri kapitallaşdırılan xərclər kimi tanınmayıb. Sumqayıt Ehtiyat Mərkəzinin yeni inzibati binasının istifadəyə verilməsinə baxmayaraq, istismarda olduğu müddətdə 854,8 min manat məbləğində amortizasiya xərci hesablanmayıb və s.

Daha bir nöqsan: elmi-tədqiqat işlərinə görə qeyri-rezident fiziki şəxslə bağlanmış müqavilə üzrə həyata keçirilmiş ödəniş ilə bağlı ödəmə mənbəyindən 4,9 min manat məbləğində vergi borcunun, qeyri-rezident hüquqi şəxslərlə bağlanmış müqavilələr üzrə isə ödəmə mənbəyindən 9 halda 210,6 min manat məbləğində vergi borcunun, həmçinin informasiya texnologiyaları sahəsi üzrə iş və xidmətlərin göstərilməsinə görə qeyri-rezident hüquqi şəxslərlə bağlanmış müqavilələr üzrə 207,4 min manat ƏDV məbləğinin hesablanaraq dövlət büdcəsinə ödənilməsi təmin edilməyib...

Yada salaq ki, 3 il öncə düz 27 il AMB sədri olan Elman Rüstəmovun Mərkəzi Bank rəhbərliyinə namizədliyi növbəti dəfə irəli sürülmüşdü və gözləmək olardı ki, o, 2025-ci ilə qədər postunda qalacaq. Lakin, bu, baş vermədi. O cəmi 2 il sonra bu postdan kənarlaşdırıldı və hazırda Baş nazirin müşaviri postunu tutur.

Əslində E.Rüstəmovun öz postunu itirməsi təəccüblü deyildi. Son vaxtlar həm onun, həm də ümumilikdə Mərkəzi Bankın fəaliyyəti ilə bağlı tənqidi fikirlər intensivləşmişdi. Odur ki Rüstəmovun əvəzlənməsini "sürpriz" adlandırmaq çətin idi. Lakin hər bir halda sabiq baş bankir barədə qərar maraq doğurmaya bilməzdi. Belə bir qərarın verilməsinə nə səbəb olmuşdu? Bu suala cavab olaraq müxtəlif versiyalar səsləndirilir. Onlardan hansının doğru olduğunu demək çətin idi. Lakin bir məqamın Mərkəzi Bank rəhbərliyində edilən dəyişiklikdə həlledici rol oynadığı ehtimalı yüksək görünürdü. Məsələ ondadır ki, ötən ilin əvvəlində, daha dəqiq desək, yanvarın 12-də dövlət rəhbəri yerli televiziya kanallarına müsahibəsində bir neçə il əvvəlki devalvasiya qərarı ilə bağlı da danışmışdı: "Bildiyiniz kimi, bir neçə il bundan əvvəl biz çox ağır bir addımın atılmasına məcbur idik. Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi" deyən ölkə başçısı əlavə edib: "Amma o addımı biz mütləq atmalı idik. Çünki əgər biz bu addımı atmasaydıq, biz bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxardı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Haradasa 10 milyard dollar. Təxminən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdir. Nəticə etibarilə manatı Mərkəzi Bank sabit saxlaya bilmədi və 10 milyard dollar valyutanı biz itirdik".

Xatırladaraq ki, 2015-ci il fevralın 21-də Mərkəzi Bank milli valyutanın devalvasiyasını həyata keçirərək 1 Azərbaycan manatının rəsmi məzənnəsinin 1.05 ABŞ dollarına bərabər olduğunu elan etdi. Həmin il dekabrın 21-də isə 2-ci devalvasiya oldu və 1 ABŞ dollarının rəsmi məzənnəsini 1,55 manat səviyyəsində qərarlaşdı.

Maraqlıdır ki, hər iki devalvasiya qərarından bir neçə gün öncə Mərkəzi Bank rəhbəri Elman Rüstəmov manatın ucuzlaşdırılmayacağını bildirmişdi. Lakin hər dəfə də devalvasiya qaçılmaza çevrilmişdi.

Bəs bu devalvasiyalara səbəb nə idi? Məsələ orasındadır ki, ixracatımızın böyük hissəsini neft və neft məhsulları təşkil edirdi. Neftin dünya bazarlarında kəskin ucuzlaşması (120 USD-dən 25 USD yə qədər) və bu ucuzlaşma fonunda ölkəyə daxil olan xarici valyuta kütləsinin kəskin azalması isə devalvasiyaya gətirib çıxardı. Yəni Mərkəzi Bankın valyuta ehtiyatlarının sürətlə əriməsinin qarşısını almaq üçün manatı ucuzlaşdırmaqdan başqa yol qalmadı.

Dövlət rəhbərinin yerli telekanallara müsahibəsi zamanı söylədiklərindən isə bir daha aydın oldu ki, sözügedən proses 10 milyard dollar valyutanın itirilməsi ilə nəticələnib.

Eyni zamanda görünən odur ki, Elman Rüstəmov və onun rəhbərlik etdiyi Mərkəzi Bank zamanında doğru qərarlar verməyə yubanıb. Həmin qərarlar vaxtında verilsəydi, itirdiyimiz valyutanın həcmi də bu qədər böyük olmazdı.

İndi isə sabiq baş bankirin səlahiyyət müddəti başa çatmadan AMB sədri postundan uzaqlaşdırılmasının növbəti ağlabatan səbəbi ortaya çıxıb. Hesablama Palatası Rüstəmovun fəaliyyətində çoxsaylı nöqsanlar aşkarlayıb. Yoxlamalar dərinləşəcəyi təqdirdə bu nöqsanların miqyasının genişlənəcəyinə şübhə yoxdur.

Qısası, Elman müəllimin, az qala, 30 ilə yaxındır tutduğu vəzifəni itirməsinin kifayət qədər obyektiv səbəbləri yavaş-yavaş tamamilə aydınlaşır...

***Sənan Mirzə***

# Yeni toqquşma, yoxsa sülh üçün növbəti şans...

***Xəbər verdiyimiz kimi, aprelin 11-də Ermənistan-Azərbaycan sərhədində qarşıdurma yaşandı. Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutdu. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alındı, atəş mövqeləri susduruldu.***

Təxribatların qarşısını alarkən Azərbaycan ordusunun 3 hərbi qulluqçusu şəhid olub, 4 hərbçimiz isə yaralanıb. Ermənistan Müdafiə Nazirliyi toqquşma zamanı 4 erməni hərbçinin öldüyünü, 6-sının yaralandığını açıqlayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasında qeyd olunub ki, təxribatlara görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür. Prezident İlham Əliyev isə ötən gün ATƏT sədri ilə görüşündə sərhəddə baş vermiş insidentin Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədildiyini diqqətə çatdırıb.

Baş verən silahlı toqquşmadan sonra Rusiyadan danışıqlar prosesinin yenilənməsi təşəbbüs gəldi. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova Azərbaycan-Ermənistan sərhədində bu cür hadisənin gözlənilən olduğunu bildirib. "Rusiya tərəfi artıq öz təhlilini bölüşüb ki, regionda köhnə məsələnin həlli ilə heç vaxt məşğul olmayan digər struktur və aktorların, Avropa İttifaqı missiyasının interpolyasiyası nəticə verməyəcək. Bunu təxmin etmişdik. Biz bunun kəskinləşməyə, sabitliyin pozulmasına gətirib çıxaracağını və sülh yolu ilə nizamlanmaya nail olmaqdan uzaqlaşdıracağına dair gördüklərimizi demişdik. İndi biz stabilliyin aradan qaldırılmasının fərqli işartılarını kədər və təəssüflə izləməkdəyik", - XİN rəsmisi vurğulayıb. Zaxarova, həmçinin qeyd edib ki, Azərbaycan və Ermənistan arasında danışıqların növbəti mərhələsi Rusiyada keçiriləcək. Onun sözlərinə görə, Bakı və İrəvan Rusiyanın görüş təklifini qəbul edib. Zaxarova görüşün hansı səviyyədə keçiriləcəyini və nə vaxt baş tutacağını açıqlamayıb.

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən keçmiş dövlət müşaviri Qabil Hüseynli deyib ki, Ermənistanın Laçında törətdiyi təxribat əvvəlcədən hazırlanmış bir plan idi. O xatırladıb ki, təxribat hadisəsindən sonra Ermənistanın baş naziri Nikol Paşinyan sərhəd qoşunlarının komandanını işdən çıxarıb: "İddialara görə o, əməliyyatı uğurla həyata keçirmədiyinə görə vəzifəsindən kənarlaşdırılıb. Siyasi nöqteyi-nəzərdən isə fikirlər söylənilir ki, Paşinyan bu addımı atmaqla təxribatda əlinin olmadığını göstərməyə çalışır. Buna baxmayaraq, təxribatın yüksək siyasi səviyyədə hazırlandığı məlumdur. Ermənilərin təxribatı törətməkdə məqsədi həm İrandan, həm də Hindistandan alınmış silahların sınaqdan keçirilməsi, Ermənistan ordusunun uğur qazana biləcəyinə dair illuziyaların yaradılması və uğur qazanacağı təqdirdə bunun Azərbaycan üçün gözdağı yaratması idi. Onlar öz məqsədlərinə nail ola bilmədilər. Üstəlik, prosesdə İranın iştirakı da birmənalıdır. İran nəinki Ermənistana silah-sursat verib, həmçinin öz təlimatçılarını ora göndərib. Döyüşlər



başlayanda dronların uçuşu və raket texnikasının işə salınmasının da onların iştirakı ilə həyata keçirildiyi sübuta yetirilib. Onu da qeyd edim ki, vəziyyət hazırda sabitləşib", - deyə o qeyd edib.

Q.Hüseynli son toqquşmadan sonra sülh prosesinə dair növbəti görüşün Moskvada keçirilməsinə dair qərar qəbul edilməsinə diqqət çəkib: "Rusiya da bu proseslərdə maraqlı idi, çünki toqquşmalardan sonra Rusiyanın Ermənistana təsirləri artır. Sülh müqaviləsi ilə bağlı növbəti görüşün Moskvada keçirilməsi də məhz bu toqquşmalardan sonra qərara alınıb. Bir sözlə, sülh prosesi davam etsə də, onun nə qədər effektiv olduğunu demək bir qədər çətindir. Rusiya indi öz iştirakı olmadan keçirilən görüşlərdə əldə olunan nəticələrə zərbə vuraraq sülh prosesini pozub. Biz indiyədək Avropa İttifaqının və Amerika Birləşmiş Ştatlarının (ABŞ) sülh prosesində iştirakına meyilli olmuşuq və bunun müsbət nəticələrinin olacağına inanmışıq. Rusiyanın Qarabağ məsələsində tutduğu mövqe Azərbaycanı təmin etməyən və sülh prosesini pozan amillərdən biri idi. İndi isə görək, Rusiya bu dəfə Qarabağ məsələsində Azərbaycanın suverenliyi ilə bağlı hansı mövqeni tutacaq. Hər halda, mən onlardan pozitiv bir addım gözləmirəm. Zənnimcə, həm Ermənistan, həm də Azərbaycan ABŞ və Aİ-nin birgə həyata keçirmək istədiyi vasitəçilik səylərinə daha çox meyillidirlər".

Politoloq Elxan Şahinoğlu isə bizimlə söhbətində deyib ki, Kreml təmas xəttindəki toqquşmadan dərhal sonra Azərbaycan və Ermənistana Moskvada görüş təklifi edib. O xatırladıb ki, toqquşmadan bir neçə gün əvvəl isə görüşün Vaşinqtonda keçirilməsi təklif edilmişdi: "Brüssel də növbədə gözləyir. Azərbaycan və Ermənistan liderləri arasında görüşün birinci hansı paytaxtda keçirilməsi uğrunda yarış başlayıb. Görüş məkanlarının əhəmiyyəti və fərqi nədədir? Moskva, Vaşinqton və Brüsselin hər üçü sözdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını istəyir. Ancaq Kreml indidən tərəflərə mesaj göndərir ki, sülh sazişi Vaşinqton və ya Brüsseldə imzalanarsa, bu uzunömürlü olmayacaq. Bu o deməkdir ki, sülh sazişi Qərbdə imzalanarsa Rusiya buna müxtəlif yollarla mane olacaq, təmas xəttində gərginlik azalmayacaq. Bəs sülh sazişi Moskvada imzalanarsa nə baş verəcək, Vaşinqton və Brüsselin reaksiyası necə olacaq? ABŞ və Avropa İttifaqının əllərində Rusiya kimi bölgəni qarışdıracaq alətləri yoxdur. Bu onlara lazım da deyil. Vaşinqton və Brüsselə Cənubi Qafqazda sülh və bölgə ölkələri arasında əməkdaşlıq, o cümlədən Rusiyanın təsirinin azalması lazımdır. Bu olacaqsa, ABŞ və Avropa İttifaqı məmnun qalacaq. Ancaq Kreml Azərbaycanla Ermənistan arasında barışın əldə olunmasını ona görə təmin etmək istəmir ki, bölgə ölkələri ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirsinlər. Bu Kremlin maraqlarına ziddir. Rusiya paytaxtında imzalana biləcək mümkün sülh sazişi bölgədə Rusiyanın təsir imkanlarını artırmağı hədəfləyir".

***Murad İbrahimli***



## "Bosniya və Herseqovina Azərbaycandan qaz alacaq" - Vüqar Bayramov

***"Son illər Bosniya və Herseqovina ilə Azərbaycan arasında strateji və iqtisadi əlaqələrin dərinləşməsi müşahidə olunur. 2022-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 5.1 milyon dollar olub".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, ötən il Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı ticarət dövriyyəsi 3,2 dəfə artıb.

"2020-ci illə müqayisədə isə artım 7 dəfə olub. Aydındır ki, tərəflər arasında ticarət dövriyyəsinin artırılması üçün daha böyük potensial var. Azərbaycan Prezidentinin səfəri zamanı təşkil ediləcək müzakirələr bu imkanlardan daha çox faydalanmağa şərait yaradacaq. Bu baxımdan, Azərbaycan Prezidentinin Bosniya və Herseqovinaya səfəri ölkələr arasında münasibətlərin inkişafında yeni mərhələ olacaq. Bosniya və Herseqovina ilə həm enerji, həm də neftdən kənar sektorlar üzrə əməkdaşlıq imkanları var. Bosniya və Herseqovina da Azərbaycandan qaz almaq niyyətində olan ölkələrdəndir. Belə ki, İon-Adriatik (IAP) kəmərinin TAP-a inteqrasiyası mümkündür. Bu isə sözügedən ölkənin Azərbaycan qazından istifadəsinə gətirib çıxara bilər. İAP-ın ötürücülük qabiliyyəti ildə 5 milyard kubmetrdən çox olacaq. Avropada Azərbaycan mavi qazına tələb artır. Bu isə ölkənin geo-siyasi mövqeyinin daha güclənməsinə gətirib çıxarır".

## Çavuşoğlu Avstriyaya səfər edəcək

***Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu 14 apreldə Avstriyaya səfər edəcək.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyə XİN məlumat yayıb.

Bildirilir ki, səfər çərçivəsində Çavuşoğlu Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberqla görüşəcək.

# Baş nazir qərar imzaladı



***Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların sayı artırılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, təsnifata Ümumi fiziki hazırlıq, Kütləvi-sağlamlaşdırıcı idman və Adaptiv bədən tərbiyəsi ixtisasları daxil edilib.

Yeni ixtisaslar səhiyyə, rifah və xidmət ixtisasları qrupuna aid olunub.

# "Azərbaycanlı hərbçilər şiddətli şəkildə döyülüb" - XİN



***"Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq itkin düşən Azərbaycan Ordusunun 2 əsgəri Ermənistan tərəfindən saxlanılıb".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Ayxan Hacızadə tviterdə yazıb.

"Onlar şiddətli şəkildə döyülüb və işgəncələrə məruz qalıblar. Bu cür pis rəftar, tamamilə qəbuledilməzdir və beynəlxalq səviyyədə pislənməlidir!", - o bildirib.

# Gömrüklə bağlı dəyişiklik



***Nazirlər Kabineti 6 may 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, həmin siyahıya toksiki istehsalat tullantılarının utilizasiyası da aid edilib.

# Paşinyan ATƏT sədri ilə bu məsələləri müzakirə etdi

***Ermənistanın baş naziri Nikol Paşinyan ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmanini qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat dərc edib.

Paşinyan hökumətin ATƏT ilə əməkdaşlığı inkişaf etdirmək və genişləndirməkdə maraqlı olduğunu qeyd edib.

Buyar Osmani də öz növbəsində Ermənistanla əməkdaşlığın vacibliyini vurğulayıb və əlavə edib ki, təşkilatın məqsədi regionda sülh və sabitliyə töhfə verməkdir.

Həmsöhbətlər Qarabağ münaqişəsi, Laçın dəhlizi, həmçinin Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyasının həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000


# Bakalavr təhsili üzrə ixtisasların sayı artırıldı

***Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların sayı artırılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, təsnifata Ümumi fiziki hazırlıq, Kütləvi-sağlamlaşdırıcı idman və Adaptiv bədən tərbiyəsi ixtisasları daxil edilib. Yeni ixtisaslar səhiyyə, rifah və xidmət ixtisasları qrupuna aid olunub.

# Ombudsman hərbçimizə işgəncə verilməsilə bağlı müraciət etdi

***Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusunun işgəncə və qeyri-insani rəftara məruz qalması ilə bağlı foto və video materiallar yayılıb.***



Ombudsman Aparatından Bakıvaxtı.az-a verilən məlumata görə, bir neçə gün öncə Azərbaycan Ordusunun iki hərbi qulluqçusunun əlverişsiz hava şəraiti ilə əlaqədar yolu azaraq Ermənistanla sərhəd ərazisində itkin düşməsi barədə məlumatlar yayılmış, Ermənistan tərəfi isə onların saxlanıldığını təsdiqləmişdi.

Ermənistan kütləvi informasiya vasitələrində bu gün yayımlanan video və fotolarda Azərbaycan hərbi qulluqçusuna münasibətdə beynəlxalq sənədlərə zidd olaraq işgəncə və digər qeyri-insani hərəkətlərin törədilməsi aydın şəkildə öz təsdiqini tapır. Belə ki, yayılmış videoda azərbaycanlı hərbi qulluqçunun əl-qolu bağlanmış vəziyyətdə döyülməsi, ləyaqətinin alçaldılması müşahidə edilir.

"Hərbi əsirlərlə rəftar haqqında" III Cenevrə Konvensiyasına əsasən, döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə bütün hallarda insani rəftar edilməlidir və hərbi əsirlər hər zaman xüsusən zorakılıq əməlləri, hədələnməkdən müdafiə olunmalıdırlar.

Azərbaycan Ombudsmanı olaraq, hərbi qulluqçumuza qarşı bu cür qeyri-insani rəftar göstərilməsi faktı ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət edərək, bu fakta reaksiya verməyə və Ermənistanı beynəlxalq hüquqla üzərinə götürdüyü tələblərə riayət etməyə çağırmağa dəvət edirəm. Eyni zamanda, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq həmin hərbi qulluqçularımıza baş çəkilməsini və onların vəziyyəti ilə bağlı məlumatların verilməsini tələb edirəm.

# "Balamı mənə qaytarın" - Ermənistanda saxlanılan Hüseynin anası

***"Oğluma işgəncə verilməsi ilə bağlı görüntüləri internetdə izlədim. Hələ də şokdayam. Bu, nə oyundur bizim başımıza gəldi".***

"Unikal" xəbər verir ki, bunu Modern.az-a Ermənistanda saxlanılan əsgər Hüseyn Axundovun anası Şəlalə Axundova bildirib.

O, oğlunun günahsız olduğunu deyib: "Mən bundan əvvəl Qırmızı Xaç Komitəsinə, Müdafiə Nazirliyinə müraciət etmişdim. Həyat yoldaşım neçə gündür Naxçıvandadır. BQXK məni sorğu-sual elədi, dedilər ki, övladınızın məsələsi araşdırılacaq və Azərbaycana gətiriləcək".

Şəlalə Axundovanın sözlərinə görə, övladı əsgərlikdən sonra hərbidə qalmağa hazırlaşırdı: "Biz Mehdiabadda yaşayırıq. İki qızım, bir oğlum var. Hüseyn 9 yaşından əsgər gedən günə qədər fəhləlik edib, daş daşıyıb, ailəsinə baxıb. Xəstəliyimə görə mən işləyə bilmirdim. Çox yaxşı oğuldur. Əsgərlikdən gəlməyinə 5 ay qalmışdı. Onunla sonuncu dəfə aprelin 4-də danışmışdıq. MAXE olacağını deyirdi. Əsgərlik vaxtı heç nədən şikayəti yox idi, hər şeyin qaydasında olduğunu deyirdi. Xahiş edirəm, balamı mənə qaytarın".

Azərbaycan Ordusunun itkin düşən əsgəri Axundov Hüseyn Əhliman oğlu Ermənistan ərazisində saxlanılıb. Onun Qafan




rayonunda tutulduğu bildirilib. Sosial şəbəkələrin erməni seqmentində azərbaycanlı əsgərin foto və videoları yayılıb. Kadrlardan görünür ki, H.Axundov Ermənistanda saxlanıldıqdan sonra amansız işgəncələrə məruz qalıb.

# BQXK Azərbaycanda saxlanılan ermənilərə baş çəkdi

***Aprel ayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) əməkdaşları Bakıda saxlanılan Ermənistan vətəndaşlarına baş çəkiblər.***

Bu barədə "Unikal"a BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

"Azərbaycan tərəfinin haqqında məlumat verdiyi həmin şəxslərlə təkbətək görüş keçirilib və onların ailələri ilə əlaqələri




yaradılıb. Mandatına uyğun olaraq BQXK bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır",- rəsmi məlumatda qeyd olunub.

# Spiker Matviyenkonu Ermənistanın son hərbi təxribatı barədə məlumatlandırdı

***Milli Məclisin sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşündə Ermənistanın 11 aprel tarixində törətdiyi hərbi təxribat barədə məlumat verib.***

"Unikal" xəbər verir ki, spiker deyib ki, bu kimi təxribatların beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir.

Sahibə Qafarova qeyd edib ki, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq, Azərbaycana qarşı apardığı təxribatlar nəinki Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir.: "Ona görə də Ermənistanın bu addımları ciddi şəkildə qınanılmalıdır".

# Azərbaycanla Bosniya və Herseqovinanın liderləri bəyanatla çıxış ediblər

***Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda mətbuata bəyanatlarla çıxış ediblər.***

Əvvəlcə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bəyanatla çıxış edib.

-Bizim hörmətli qonağımız cənab Prezident İlham Əliyevi salamlayıram. Mən bir aydan bir az çox müddət öncə Bakıda oldum. Orada mənə cənab İlham Əliyev kimi dost tərəfindən isti, mehriban qonaqpərvərlik göstərildi. Orada mən cənab Prezidenti buraya dəvət etdim. Qısa bir zamanda cənab Prezident buraya səfər edib, Bosniya və Herseqovinanın dostu olduğunu sübut edib.

Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq. Bu fürsətdən istifadə edərək, cənab Prezident Əliyevə və ölkənizə 2014-cü ildə bizim ölkədə baş vermiş daşqın zamanı göstərilmiş yardıma görə minnətdarlığımı bildirirəm. Bizim xalqımız böyük çətinliklərlə üzləşmişdi və Azərbaycan o zaman bizim yanımızda oldu, daha sonra koronavirus və pandemiya dövründə də Azərbaycan bizə yardım göstərdi. Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda, Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur. Bu gün bizim imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik. Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda, daha səmərəli iqtisadi əməkdaşlıq edək. Bunun sayəsində biz - işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda, təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq.

Çox şadıq ki, Azərbaycan artıq Bosniya və Herseqovinada səfirliyini açmışdır və mən məmnuniyyətlə qeyd edə bilərəm ki, biz də ölkəmizin Bakıda səfirliyini açmaq qərarına gəlmişik. Biz bunu həyata keçirəcəyik və bu məsələ ilə bağlı da cənab Prezidentə məlumat vermək istəyirəm ki, biz hər üç üzv yekdil qərar verdik ki, Bakıda səfirliyin açılması vacibdir. Bununla bağlı təlimatlarımızı artıq Xarici İşlər Nazirliyinə vermişik və əminəm ki, səfirliyimiz açılan kimi onun bəhrəsini görəcəyik.

Qeyd edim ki, Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, artıq biz indi praktiki əməkdaşlığa başlayırıq. Dünən biz Azərbaycanın iqtisadiyyat naziri və nümayəndə heyəti ilə görüş keçirdik. Bizim Nazirlər Şurasında və işgüzar dairələrdə görüşlər həyata keçirildi ki, biz hansı istiqamətdə əməkdaşlığımızı davam etdirə bilərik. Biz nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik.

Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, birbirimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük.

Cənab Prezident, Sizi burada salamlamaq mənim üçün böyük şərəfdir. Sağ olun ki, mənim dəvətimi qəbul etdiniz. Şadam ki, bu gün biz bu fürsəti əldə etmişik. Burada əzmimizi ifadə edirik ki, əməkdaşlığımızı davam etdirəcəyik.

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

- Hörmətli xanım Sədr, hörmətli cənab Komşiç, hörmətli cənab Beçiroviç.Hörmətli xanımlar və cənablar.

İlk növbədə, xanım Sədr, mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən gözəl ölkənizə olmağımdan çox məmnunam. Siz qeyd etdiyiniz kimi, biz Sizinlə bir ay yarım bundan əvvəl Bakıda görüşmüşdük. Siz məni ölkənizə dəvət etmişdiniz və mən böyük məmnuniyyətlə bu dəvəti qəbul edib bu gün Sizin ölkənizdəyəm.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında Bosniya və Herseqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Yəni, bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək.

Əlaqələrimizin tarixi də çox gözəldir. Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi.

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq.

Azərbaycan da öz növbəsində bütün məsələlərdə, o cümlədən Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir.

Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir.

Biz müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələr aparacağıq. Eyni zamanda, iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. Birgə komissiya, yəni, Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda, konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq.

Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.



Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir.

Bununla bərabər, hidroenergetika, eyni zamanda, bərpaolunan digər enerji növləri üzrə birgə araşdırmalar aparılacaq. Əminəm ki, bu istiqamətdə də ciddi addımların atılması mümkün olacaq. Azərbaycan xarici ölkələrə milyardlarla dollar həcmində sərmayə qoyubdur və əlbəttə ki, Bosniya və Herseqovina ilə bu sahədə əməkdaşlıq bizim üçün çox maraqlıdır.

Bununla paralel olaraq nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda, digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər.

Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər. Həm Bosniya və Herseqovina, həm Azərbaycan çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Mən bir daha bu dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Bir məqamı da qeyd etməliyəm ki, 1972-ci ildə - hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. O vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Əminəm ki, bu səfərdən sonra bizim qardaşlığımız daha möhkəm olacaq. Sağ olun.



# Hərbçimizə işgəncə verilməsi faktı ilə bağlı cinayət işi başlanıb

***Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusuna işgəncə verilməsi faktı ilə bağlı cinayət işi başlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Məlumatda deyilir: "Bəzi media və sosial şəbəkə səhifələrində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun ərazisindən əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşmüş Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistan Respublikası ərazisində əsir düşməsi və ona əlləri bağlı şəkildə açıq-aydın işgəncə verilməsi, qeyri-insani rəftara məruz qalmasına dair videogörüntülər yayılıb.

Yayılmış həmin videogörüntülərlə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 115.2-ci (əsir düşmüş şəxslərə işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə) maddəsi ilə cinayət işi başlanıb.

Qeyd olunan videogörüntülərlə bağlı zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə hərbi qulluqçumuza qarşı işgəncə verən, qəddar və qeyri-insani rəftar edən şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində tədbirlər görülür. Bəyan edirik ki, Azərbaycan vətəndaşlarına qarşı qanunsuz əməllərə yol verən şəxslərin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilməsi məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və həmin şəxslərin cəzalandırılması üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi təmin olunacaq. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcəkdir".

# Azərbaycan və ABŞ Hərbi Hava Qüvvələrinin komandanları görüşdü

***Azərbaycan müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Pentaqonda ABŞ Milli Qvardiya Bürosunun rəhbərinin müavini general-leytenant Sassevillə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə ABŞ səfirliyi məlumat yayıb.

Qeyd olunub ki, tərəflər Dövlət Tərəfdaşlıq Proqramı çərçivəsində uzunmüddətli, qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərini və ümumi ikitərəfli müdafiə əməkdaşlığımızı müzakirə ediblər.



## Azərbaycanın ikinci hərbçisi də Ermənistanda saxlanılıb

***Naxçıvan MR Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin itkin düşən 2 hərbçisi Ermənistanda tapılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan məlumat verib.

Onun sözlərinə görə, ikinci Azərbaycan əsgəri də aprelin 13-də Ermənistan ərazisində tapılıb. Məlumata görə, hərbçilərimizdən biri itkin düşdüyü günün səhəri tutulmuşdu.

Onu da deyək ki, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası əsgərlərin Ermənistan ərazisində saxlanıldığının ehtimal edildiyi nəzərə alaraq, onların azad olunmaları ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara rəsmi müraciət edib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu istiqamətində əlverişsiz hava şəraitində məhdudgörmə səbəbindən Azərbaycan Ordusunun iki hərbi qulluqçusu ərazidə istiqaməti itirərək azıblar. Onlardan biri aprelin 11-i saxlanılıb.

Qeyd edək ki, Müdafiə Nazirliyinin aprelin 10-u yaydığı rəsmi məlumata görə, əsgərlər - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu itkin düşüblər. Sözügedən əsgərlərin yaxınları onların aprelin 5-i itkin düşdüklərini bildiriblər.

***Ağarza Elçinoğlu***

## Daha bir siyasi partiya özünü buraxdı



***Azərbaycanda fəaliyyətinə son verilən siyasi partiyaların sayı 12-yə çatıb.***

Ramil Hüseynovun rəhbərlik etdiyi Yeni Yol Partiyası özünü buraxmaq qərarına gəlib.

Partiya 2022-ci ilin yanvar ayında təsis edilib, 1992-ci ildə yaradılan Azərbaycan Dirçəliş və Tərəqqi Partiyası ilə birləşib və dövlət qeydiyyatına alınıb.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda 59 siyasi partiya qeydiyyatda olub. Mart ayının əvvəlindən partiyalar özünü buraxmağa başlayıb. Azərbaycan Respublikaçılar Partiyası, Müstəqil Azərbaycan Partiyası, Azərbaycan Vahid Kommunist Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası (ASDP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Milli Vəhdət Partiyası (MVP), Azərbaycan Sosial Rifah Partiyası (ASRP), Azərbaycan Naminə Alyans Partiyası (ANAP), Azərbaycan Təkamül Partiyası, Birlik partiyası və Azərbaycan Azad Respublikaçılar Partiyası öz hüquqi fəaliyyətlərinə xitam vermək barədə qərar qəbul ediblər.

# "Azərbaycan tərəfi bölgədə öz mövqelərini dəqiqləşdirir"

## Tofiq Zülfüqarov: "Buna mane olmaq üçün belə təxribatlar törədilir və aydın olur ki, bu təxribatlar erməni tərəfinin sifarişidir"

***Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, ermənilərin aprelin 11-də hansı məqsədlə təxribat törətməsindən, Avropa İttifaqının "mülki" missiyasının Ermənistana gəlməsindən sonra ermənilərin törətdiyi təxribatların sayının artmasından, Bakı ilə İrəvan arasında danışıqların növbəti mərhələsində hansı məsələlərin müzakirə oluna biləcəyindən danışıb.***

***-Tofiq müəllim, aprelin 11-i Ermənistan silahlı qüvvələrinin bölmələri təxribat məqsədilə Azərbaycan Ordusunun Laçında yerləşən döyüş mövqelərini intensiv atəşə tutub. Hərbçilərimiz Ermənistan tərəfinin təxribatının qarşısını qətiyyətlə alıb. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib. Düşmənin törətdiyi bu təxribatın məqsədi nə idi?***



-Bununla bağlı bir çox versiyalar səslənir. Onların bir hissəsi ilə razıyam. Ermənistan tərəfi bu təxribatı planlaşdırıb və həyata keçirib. Bəlkə də xaricdən olan sifarişlə gərginlik gündəmə gətirilib. Belə ki, vasitəçiliyə meyilli olan, buna cəhd göstərən oyunçular gərginliyi gündəmə gətirməklə orada öz mövcudluqlarını genişləndirmək, ya da hansısa danışıqlara bənzər siyasi prosesə başlamaq niyyətindədirlər. Həmin yerə baxsaq, Azərbaycan tərəfi bölgədə öz mövqelərini dəqiqləşdirir. Bununla yanaşı, Laçında giriş-çıxış məntəqəsi yaradılmalıdır. Buna mane olmaq üçün belə təxribatlar törədilir. Bəllidir ki, bu təxribatlar erməni tərəfinin sifarişidir. Sual yaranır, bu təxribat Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən, yoxsa hərbçilərdən ibarət hansısa şəxslər tərəfindən planlaşdırılıb? Təxribat törədilən zaman korpus komandirinin bölgədə olması onu göstərir ki, orada nəzarət və idarəetməni təmin etmək üçün Ermənistan ordusunun yüksək rütbəli zabitləri olub. Bu təxribatı törətməklə bir daha yadımıza salırlar ki, onlarda sözə əməl olunması kimi adət yoxdur. Hər zaman ehtiyatlı olmalı və belə təxribatları gözləməliyik.

***-Avropa İttifaqının "mülki" missiyasının Ermənistana gəlməsindən sonra bu ölkənin ordusunun törətdiyi təxribatların sayının artdığı müşahidə olunur...***

-Bu missiyanın çox məhdud səlahiyyətləri var. Ermənistan mediasında da bununla bağlı fikirlər səslənir ki, bu missiyanın olub-olmamasının heç bir xeyri yoxdur. Onlar həmişə öz taktikalarına sadiqdirlər. Belə ki, təxribat törədirlər və baş vermiş gərginliyin miqyasını göstərərək bunun əsasında istədikləri məqsədlərə çatmaq istəyirlər. Onlar çalışırlar ki, gərginlikdən sonra yaranan vəziyyət hansısa dairələrdə müzakirə olunsun və göndərilən missiyanın səlahiyyətləri daha da genişləndirilsin. Məsələn, müdafiə məqsədləri üçün daha çox silahlanmış hərbi kontingent və s. olsun. Ermənilərdə bu istək var. Hətta onlar təxribatçı şəkildə fikirlər səsləndirirlər. Guya, İranla təmasların nəticəsində onu əldə etmək lazımdır ki, İran Zəngəzur bölgəsində hansısa hərbi hissələrini yerləşdirsin. Bunlar da təxribatçı çağırışlardır. Erməni tərəfi istəyir bu çağırışlarla onu göstərsin ki, guya İran orada güc tətbiq etməyə hazırdır. Digər tərəfdən Qərbə belə mesaj verirlər ki, onların istədiyi missiyanı göndərməsələr məcbur olub İrana müraciət edəcəklər. Bu təxribatın bir neçə sifarişçisinin olması mümkündür. Ona görə ki, Ermənistan elitasının bəzi hissəsi Qərbin, başqa bir hissəsi isə Rusiyanın sifarişlərini həyata keçirmək istəyir. Belə bir fikirlər səslənmişdi ki, guya KTMT ora missiya göndərməyə hazırlaşır. O cümlədən İranın bu məsələlərdə müxtəlif bəyanatlarını eşidirik. Bir sözlə, sifarişçilər çoxdur. Biz görürük ki, Ermənistan elitasının daxilində parçalanma mövcuddur.

***-Vətən müharibəsindən sonra düşmən tərəfindən bir neçə kiçik təxribat törədilib. Bu təxribatlar yenidən böyük müharibənin baş verməsinə səbəb ola bilərmi?***

-Ermənistan ordusu genişmiqyaslı hərbi əməliyyatlara hazır deyil. Onların imkanı və səviyyəsi buna bəs etməz. Amma hansısa kiçik və orta səviyyəli təxribatların olmasını istisna etmək olmaz. Ona görə ki, Ermənistan tərəfinin hərbi fəallığı nəticələr əldə etmək, hansısa əraziləri nəzarət altına götürmək və yaxud Azərbaycan Silahlı Qüvvələrinə zərbə endirmək üçün deyil. Onların məqsədi bu və ya digər formada törətdikləri təxribatlarla hansısa siyasi fon yaratmaqdır. Sonra da bundan istifadə edərək öz məqsədlərinə nail olmaq istəyirlər. Onların taktikası yalnız bundan ibarətdir.

***-Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Bakı ilə İrəvan arasında danışıqların növbəti mərhələsi Rusiyada keçiriləcək. Onun sözlərinə görə, hər iki tərəf buna razılıq verib. Necə düşünürsüz, bu görüş zamanı hansı məsələlər müzakirə ediləcək?***

- Hiss olunur ki, Ermənistanın ardıcıl şəkildə qərbyönümlü addımlar atması Rusiyada narahatlıq yaradır. Onların digər narahatlıqları isə Ermənistanın İranla olan münasibətləridir. Artıq bu münasibətlər Rusiyanın kontrolunda olmayacaq. İran istəyir ki, orada öz maraqlarına uyğun mühit formalaşdırsın. Bu da Rusiyanın məqsədləri ilə üst-üstə düşmür. Bununla yanaşı, Rusiya Ermənistan siyasi elitasından narazıdır. Hesab edirəm ki, bu görüşün məqsədi Ermənistana xəbərdarlıq etməkdir. Belə ki, Rusiya onların nəzarəti altında olan Ermənistanı əldən buraxmaq istəmir. Amma Azərbaycanın öz siyasi xəttinin olması və Türkiyə ilə koordinasiya olunması faktdır. Bunu istəyib-istəməməkdən asılı olmayaraq bu xətt davam ediləcək. Amma Rusiya hələ də Ermənistana təsir etmək iqtidarındadır. Düşünürəm ki, orada olan görüşün əhval-ruhiyyəsi bundan ibarət olacaq.

***Anar Kəlbiyev***

# Zakir Qaralovun 14 milyon manatlıq borcu

## Sabiq Baş prokurora aid olduğu deyilən şirkətlər qrupunda nələr baş verir?

***Yola salmaq üzrə olduğumuz həftə "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC -nin dövlət qarşısında vergi borcunun olduğu üzə çıxdı. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə əsasən məlumat verilib.***

Məlumatdan belə aydın olur ki, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin 13 969 675.60 manat vergi borcu var. O da bildirilib ki, sözügedən borclar barədə son məlumat 6 aprel 2023-cü il tarixinə qədər olandır (banker.az).

Xatırladaq ki, tikinti sektorunda əsas şirkətlərdən biri olan "Akkord" Korporasiyası infrastruktur layihələrinin, ictimai obyektlərin tikintisi, inşaat materiallarının istehsalı üzrə ixtisaslaşıb.



"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC 2006-ci ildə dövlət qeydiyyatına alınıb. Bu şirkətin nizamnamə kapitalı 83 259 750 manatdır və qanuni təmsilçisi Ayhan Keskinkilicdır.

Yerli medianın yazdığına görə, "Akkord" Şirkətlər Qrupu sabiq Baş prokuror Zakir Qaralova məxsusdur.

"Unikal"ın araşdırması nəticəsində maraqlı məqamlar üzə çıxıb. Aydınlaşıb ki, 2020-ci ilin yayında "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin dövlət qarşısında 980 min 418 manat vergi borcu varmış. Lakin cəmi 3 il sonra həmin borc 13 milyon manata yaxın artıb. Bunun səbəbləri təəccüb doğurmaya bilməz.

Qeyd edək ki, 2000-ci ildən tutduğu Baş prokuror postunu məhz 2020-ci ilin mayında itirib. Belə çıxır ki, ona aid edilən şirkətlər qrupunun çətin günləri bundan sonra daha da ağırlaşıb. Nəticədə ASC-nin borcu 13 dəfəyə yaxın yüksəlib.

İstisna deyil ki, Qaralovun holdinqi o, yüksək postdan uzaqlaşdırıldıqdan sonra aldığı çoxmilyonluq tenderlərdən kənarda qalıb. Nəticədə işlər "axsamağa" başlayıb və fantastik məbləğlə ifadə edilən vergi borcu ortaya çıxıb.

Bundan başqa, "Akkord" şirkətinin çoxmilyonluq dövlət layihələrinin icrasında ciddi yeyintilərə yol verdiyi son vaxtlar cəmiyyətdə və mediada əsas müzakirə mövzularından biridir. Bunu adıçəkilən biznes subyektinin çoxsaylı məhkəmə proseslərinin iştirakçısına çevrilməsi də təsdiqləyir. Şirkətin adı mütəmadi olaraq məhkəmə prosesləri və iddialarda çəkilir. Müşahidələr göstərir ki, iddiaların əksəriyyəti alqı-satqı müqavilələrinin icrası ilə bağlıdır, bunların bir hissəsi görülən işlərə görə ödənişlərin gecikdirilməsinə aiddir.

O da maraqlıdır ki, "Akkord"la bağlı qalmaqallı xəbərlər də məhz Zakir müəllim vəzifəsini itirdikdən sonra xüsusilə intensivləşib. Bu isə Azərbaycan təcrübəsində tez-tez rastlaşdığımız haldır: hansısa yüksək vəzifəli şəxs öz postunu itirdikdən sonra onun nəzarətində və yaxud himayəsindəki şirkətlərin də çətin günləri başlayır...

Yeri gəlmişkən, 2021-ci ilin sonlarında belə məlumat yayılmışdı ki, uzun müddət Azərbaycanda ən böyük tikinti layihələrinin icrasını həyata keçirərək, dövlət büdcəsindən milyardlarla manat pay alan, paytaxtda və iri şəhərlərdə çoxlu sayda yaşayış kompleksləri, qeyri-yaşayış binaları tikib sataraq külli miqdarda qazanc götürən, ancaq gördüyü işlərin bir çoxu keyfiyyətsiz çıxdığı üçün bazardakı mövqelərini itirən "Akkord" Şirkətlər Qrupu nüfuzunu yenidən özünə qaytarmaq uğrunda hərəkətə keçib. Buna misal olaraq Ağstafa-Qırmızı Körpü avtomobil yolunun çəkilişi ilə bağlı elan edilən tenderdə "Akkord"un "ən cəlbedici" təkliflə iştirak etməsi və müsabiqəni qazanması göstərilirdi. Lakin sonradan yayılan məlumatlar holdinq ətrafında yeni qalmaqalın yaşandığını göstərdi - həmin vaxtkı iddialara görə, holdinq subpodratçı şirkətlərə pul ödəməkdən tamamilə imtina edir, ən müxtəlif bəhanələrlə, bəzən isə təhdidlərlə bağlanılmış müqavilələrin şərtlərinə əməl olunmur. Hətta o da qeyd olunurdu ki, "Akkord"la ən ciddi qalmaqal Türkiyənin HDS şirkəti arasında yaranıb. Belə ki, holdinq qardaş ölkə HDS şirkətindən tikinti materialları sifariş edib, qarşı tərəf də ilkin materialları göndərib. "Ancaq göndərilən malın dəyəri - 200 min avro ödənilmədiyindən, HDS materialların ardının göndərilməsini dayandırıb" deyə ilyarım öncə media yazırdı. Üstəlik, holdinqin özündə də ciddi problemlər yaşandığı vurğulanırdı, əməkhaqlarının ödənilməsində yubanmaların olduğu qeyd edilirdi.

Hazırda isə "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"nın 14 milyonluq vergi borcunun yaranması bu ASC-də "suların durulmadığını" göstərir. Belə görünür ki, daha bir yüksək vəzifəli şəxsin öz postunu itirməsi ilə ona məxsus olduğu deyilən şirkətlər qrupu da çöküş dövrünü yaşayır...

***Sənan Mirzə***

# Palata Anar Kərimovun dövründəki nöqsanları aşkarladı



***Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2020-2021-ci illərdə ümumilikdə 68 halda malların (işlərin və xidmətlərin) haqqının ödənilməsinin satınalma proseduru olmadan xərc edildiyi müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının 2022-ci ildə fəaliyyəti haqqında hesabatda qeyd olunub.

Bəzi hallarda ehtimal olunan qiymətin hesablanması zamanı mövcud potensialın tam diqqətə alınmaması, həmçinin bir sıra hallarda ehtimal olunan qiymətin düzgün müəyyən edilməməsi, zəruri kalkulyasiyaların aparılmaması daha yüksək qiymətlərin tətbiqinə şərait yaratmış, ümumilikdə 5058,6 min manat məbləğində müqavilə çərçivəsində həmin vəsaitin 25,2%-i qədər əlavə vəsait ödənilib. Eləcə də, auditin əhatə etdiyi və bu dövrdən əvvəlki ildə tətbiq olunan qiymətlərin müqayisəsi 2020-2021-ci illərdə qiymətlərin bəzi hallarda aşağı olmadığını vurğulamaq imkanı verib.

O da bildirilib ki, Mədəniyyət Nazirliyi tərəfindən dövlət satınalmalarının vaxtında və əsaslı şəkildə planlaşdırılması üzrə fəaliyyətin təmin olunmaması bir sıra hallarda dövlət büdcəsi vəsaitinin ilkin təyinatının dəyişdirilməsi ilə nəticələnmiş, ümumilikdə dövlət büdcəsi xərclərinin 1283,3 min manatının iqtisadi təsnifat və 634,4 min manatının isə funksional təsnifat üzrə ilkin təyinatının dəyişdirilməsi proqnoz və icra göstəricilərinin təhrifinə şərait yaradıb.

***Anar Kəlbiyev***

# Bu il 18 bağça müdiri işdən azad olundu



***2023-cü ildə 18 bağça müdiri işdən azad olunub.***

"Unikal" xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev media nümayəndələri üçün keçirilən seminarda deyib.

Onun sözlərinə görə, proses davam etdirilir: "Bu vaxta qədər isə 100-də artıq bağça tərbiyəçisini işə qəbul etmişik".

# Qazini həbsdə vəzifəli şəxslər işgəncə ilə öldürüb - Rəsmi

***Salyan rayonunda məhkumun cəzaçəkmə müəssisəsində vəfat etməsi ilə bağlı cinayət işi açılıb.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, Salyan rayon sakini, Vətən Müharibəsi iştirakçısı Sübhan Ağayev oğurluq cinayətini törətməkdə təqsirli bilinərək bu ilin yanvar ayında məhkəmə hökmü ilə 3 il 6 ay müddətinə azalıqdan məhrumetmə cəzasına məhkum edilib. Fevral ayının əvvəlində o, Salyan rayonundakı 5 saylı cəzaçəkmə müəssisəsinə yerləşdirilib və 28 fevralda orada ölüb.

S.Ağayevin yaxınları tərəfindən sosial şəbəkədə yayılmış müraciətlərdə onun cəzaçəkmə müəssisəsində zorakılığa məruz qalması bildirilib.

Məsələ ilə bağlı Baş Prokurorluğun Mətbuat xidmətindən "Qafqazinfo"nun sorğusuna cavab olaraq bildirilib ki, prokurorluq orqanları baş vermiş hadisə barədə məlumatlıdır: "Faktla bağlı Salyan rayon prokurorluğunda Cinayət Məcəlləsinin 293.2-ci (Xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən işgəncə vermə) maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə ibtidai istintaq davam edir".



## "Bakıda iki nəfər diri-diri yandırıldı" - Prokurorluqdan məlumat

***Binədə iki nəfərin öldüyü yanğın qəsdən törədilib. "Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq, Fövqəladə Hallar Nazirliyi və Daxili İşlər Nazirliyi Mətbuat xidmətlərinin birgə məlumatında deyilir.***

Qeyd olunub ki, aprelin 10-u paytaxtın Suraxanı rayonunun Binə qəsəbəsi ərazisində yerləşən məişət əşyalarının istehsalı və təmiri sexlərindən birində baş verən yanğın nəticəsində rəngsaz işləyən 1981-ci il təvəllüdlü İftixar Əkbərov və tanışı 1991-ci il təvəllüdlü Valeh Bəylərovun yanıq xəsarətləri alaraq ölmələri faktı ilə bağlı Fövqəladə Hallar Nazirliyinin Əməliyyat-istintaq idarəsində Cinayət Məcəlləsinin 225.3-cü (iki və daha çox şəxsin ölümünə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) maddəsi ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılıb.

Prokurorluq, Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin əməkdaşları tərəfindən aparılan təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində 1991-ci il təvəllüdlü Ramin Quliyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisəyə görə qisas almaq üçün sexi qəsdən yandırmaqla orada yatmış İftixar Əkbərov və Valeh Bəylərovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Ramin Quliyev Cinayət Məcəlləsinin 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) və 186.2.2-ci (yandırmaqla əmlakı qəsdən məhv etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilib.

Cinayət işi ibtidai istintaqın davam etdirilməsi üçün aidiyyəti üzrə Prokurorluq orqanlarına göndərilib.

## Yardımlıda iki bələdiyyə sədri cərimələndi

***Yardımlıda iki bələdiyyə sədri cərimələnib. Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyindən məlumat verilib.***

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları Yardımlı rayonunun ərazisində keçirdikləri tədbir zamanı sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktını aşkarlayıb.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə Sırıq kənd Bələdiyyəsinin sədri M.Şabıyev və Zevin kənd Bələdiyyəsinin sədri Ş.Qadirli barəsində protokol tərtib olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

**Hərrac: Bakı şəh, İ.Hidayətzadə küç, 156(20A) 1933-cü məh, ünvanda keçirilir.tel:566-70-25, 566-79-67.http:birjanew.az. Açıq formada "Toyota Prado" markalı avtomobil-32 160.00 manat, "Mitsubishi Outlander" markalı avtomobil-7600.00 manat, "Great Wall Wingle 5" markalı avtomobil-5200.00 manat, Beh: Satış qiymətinin 5% hərrac təşkilatı depozit hesabına təşkilatının depozit hesabına. Behlər hərrac gününə kimi qəbul olunur. Hərraca beh ödəmiş iştirakçlar saat 11:00 da hərrac təşkilatında qeydiyyatdan keçməlidirlər. Hərrac addımı ipoteka predmetlərində: Satış qiymətinin 3%-dək. Digər hallarda sərbəst. 01/01d lot üzrə. Fiziki şəxslər şəxsiyyət vəsiqəsi;Hüquqi şəxslər-təsis sənədləri.Hərracı udmuş şəxs alış qiymətini 7 təqvim günü müddətində sifarişçinin depozit hesabina ödəməlidir. Qalib olmayan alıcıların behləri 7 təqdim günü müddətində geri qaytarılır. Hərrac 09.03.2023-cü il tarixində saat 11:00-17.00-dək (növbəlik əsasında) keçiriləcək.**

# Səhiyyə Nazirliyində Oqtay Şirəliyev "küləkləri əsir"

### Nazirliyin tabeliyindəki müəssisələrdə keçirilən dövlət satınalmaları ilə bağlı şübhəli məqamlar hələ də baş alıb gedir

***Bir müddət öncə mediada belə bir məlumat yayılmışdı: 5 nömrəli Uşaq Vərəm Sanatoriyası cari ilin fevral ayının 27-də və mart ayının 2-də 3 lot üzrə sifarişçi olduğu satınalmaya yekun vurub. Satınalmaların ümumi məbləği 82.715 manat təşkil edib.***

Diqqətçəkən isə o idi ki, adıçəkilən sanatoriyanın keçirdiyi satınalmalarda şişirdilmiş rəqəmlərə rast gəlinir. Belə ki, "İstehlakyönlü müxtəlif xidmətlər" lotu üzrə yekun vurulmuş satınalmanın 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə keçiriləcək tədbirlə bağlı olduğu deyilirdi. Sözügedən satınalmanın məbləği isə nə az, nə çox, düz 40.168 manat imiş...

Satınalmanın qalibi olaraq "VİOLET-F" Məhdud Məsuliyyətli Cəmiyyəti açıqlanmışdı. Məlum olurdu ki, adıçəkilən şirkət 2022-ci ilin iyul ayında təsis edilib. Şirkətin nizamnamə kapitalı 10 manat, qanuni təmsilçisi Bəşirov Fuad Əlişah oğludur. "VİOLET-F" MMC-nin maddi-texniki bazası, fəaliyyət profili, müvafiq lisenziyaları barədə isə heç bir məlumat yoxdur. Açığı, biz tender qalibləri olan şirkətlər barədə bu cür məlumatsızlığa öyrəşmişik. Eyni hal satınalma qalibləri üçün adi hala çevrilib. Odur ki, bu məqamın üzərində dayanmaq istəməzdik.

Yayılan məlumatda ən önəmli detal isə dövlətin 40 min manatdan artıq vəsaitini bir tibb müəssisəsinin hansı işlərə xərclədiyi ilə bağlı idi. Gəlin "həmin işlərin" siyahısına nəzər yetirək:

1. Ssenarinin yazılması və tədbirin hazırlanması
2. Musiqi qrupunun iştirakı (5 nəfər)
3. Zalın bazədilməsi, gül çələngi (təbii güllərdən)
4. Helium şarlar (rəngli) (100 ədəd)
5. Aparıcı 1 nəfər
6. Səsgücləndirmə musiqi alətləri, mikrofonun quraşdırılması və kirayəsi

Bütün bunlara büdcədən 40 min manat vəsaitin xərclənməsi hansı məntiqə sığır? Üstəlik, bir uşaq sanatoriyasında! Həm də uşaqlara birbaşa dəxli olmayan gündə! Kim bilir, bəlkə də, araşdırılsa adıçəkilən müəssisənin istənilən əlamətdar tarixi bəhanə edib oxşar tədbirlər üçün kifayət qədər pul xərclədiyi ortaya çıxacaq. Burada "xərcləmək" sözü əslində formal məna daşıyır. Normalda biz israfçılıqdan danışa bilərik.

Maraqlıdır ki, sözügedən sanatoriyanın digər satınalmaları ilə bağlı da xərclərin şişirdildiyinə dair iddialar səslənir. Məsələn, 2023-cü ilin fevral ayının 27-də "Çirkab mayelərin daşınması" və "İçməli suyun alınması" lotu üzrə yekun vurduğu satınalmalar kimi... Haqqında bəhs olunan tenderlərin ümumi məbləğinin 42.547 manat təşkil etməsi haqlı olaraq mediada və cəmiyyətdə suallara, şübhələrə yol açıb.

Onu da deyək ki, adıçəkilən sanatoriyanın satınalmaları barədə tənqidlərə müəssisə rəhbərliyi tərəfindən heç bir reaksiya verilməyib.

Yeri gəlmişkən: ötən il də 5 nömrəli Uşaq Vərəm Sanatoriyasının satınalmaları mətbuatda müzakirə mövzusuna çevrilmişdi. Məsələn, 2022-ci ilin yazında məlum olmuşdu ki, içməli suyun alınması ilə bağlı 2 kotirovka sorğusu keçirilib. Fevralda "ENRIKE" MMC qalib olub. Apreldə isə "KRİPTON LTD" MMC ilə satınalma müqaviləsi bağlanıb. Maraqlısı odur ki, bir ay fərqlə kotirovka sorğusunun birinə 35 910, digərinə isə 38 570 manat vəsait ayrılıb. Halbuki ikincidə içməli suyun bir kubu sanatoriyaya 2.96 manata, birincidə isə 2,76 manata başa gəlib...

Başqa bir ilginc məqam ondan ibarətdir ki, sanatoriyanın tabe olduğu Səhiyyə Nazirliyi (SN) də bu müəssisənin



tenderləri ilə bağlı mediada səngiməyən iddialara qarşı səssizlik nümayiş etdirir. Ümumiyyətlə isə yeni nazir təyinatından sonra da SN-nin tabeliyindəki müəssisələrin keçirdiyi satınalmaların obyektivlik, şəffaflıq baxımından şübhə doğurduğu barədə fikirlər səngimir. Bildirilir ki, həmin müəssisələr hələ də Oqtay Şirəliyevin zamanındakı prinsiplərlə işləməyə davam edirlər. Yeni nazir Teymur Musayevin bütün bunlar barədə məlumatlı olub-olmadığını bilmirik. Bircə onun bilirik ki, onun Səhiyyə Nazirliyi sistemində satınalmalar üzərində nəzarəti gücləndirməsinə ciddi ehtiyac var. Əks təqdirdə SN Oqtay müəllimin vaxtındakı kimi tezliklə yenidən ictimaiyyət arasında və KİV-də tənqidlərin başlıca hədəflərindən birinə çevriləcək.

Yada salaq ki, Şirəliyevin nazir olduğu illərdə Səhiyyə Nazirliyinə tabe olan müəssisələrdə, qurumlarda keçirilən yoxlamalar zamanı dövlət vəsiatlərindən təyinatsız istifadə hallarının aşkarlanması adət halını almışdı. Bu cür hallar sırasında satınalmalar zamanı ədalətliliyin və şəffaflığın təmin edilməməsi, xərclərin şişirdilməsi isə xüsusilə diqqət çəkirdi. Artıq həmin zərərli "ənənəyə" son qoymağın vaxtı gəlib çatmayıb? Yoxsa, SN-də hələ də Oqtay Şirəliyev "küləklərinin əsməsinə" göz yumulacaq?!

***Sənan Mirzə***

# Sabiq nazir müavini böyük təhlükə qarşısında

## Hesablama Palatasının Baş Prokurorluğa müraciəti İntiqam Babayev üçün nə vəd edir?



***Hesablama Palatası ötən il 4 nəzarət tədbiri üzrə Baş Prokurorluğa, 2 nəzarət tədbiri üzrə isə Dövlət Təhlükəsizlik Xidmətinə (DTX) müraciət edib. Bu barədə Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatda bildirilib.***

Baş Prokurorluğa edilən müraciətlərdən biri Gənclər və İdman Nazirliyi ilə bağlıdır. Müraciətin səbəbi isə 2020-ci ilin 25-29 mart tarixlərində Bakı şəhərində 55-ci Avropa Çempionatının keçirilməsi məqsədilə "Milli Karate Federasiyası" İB-yə köçürülmüş vəsaitin aidiyyəti üzrə xərclənməsini təsdiq edən sənədlərin olmamasıdır.

Buradan belə aydın olur ki, gənclər və idman nazirinin sabiq müavini İntiqam Babayevi qarşıda heç də asan günlər gözləmir. Məsələ ondadır ki, o, sözügedən postu tutarkən QHT-lərlə və idman federasiyalarla işi kurasiya edib. Ona görə də yuxarıda haqqında bəhs olunan vəsaitlə bağlı araşdırmanın keçmiş nazir müavininə ciddi başağrısı yaradacağı istisna deyil.

Yeri gəlmişkən, hələ ötən il Hesablama Palatasının Gənclər və İdman Nazirliyində aparılan yoxlamalarının nəticələrinə dair hesabatda çoxsaylı nöqsanlara yol verildiyi üzə çıxmışdı. Bu nöqsanların arasında məhz Babayevin kurasiya etdiyi sahələrlə bağlı qanunsuzluqlar diqqət çəkirdi. Məsələn, məlum olurdu ki, bir sıra idman federasiyaları, eləcə də idman məktəbi tərəfindən yığma komandanın üzvlərinin beynəlxalq yarışlara və Olimpiya oyunlarına hazırlanması, həmçinin federasiyanın maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə maliyyə köməkliyinin göstərilməsi ilə bağlı etdiyi müraciətlər əsasında təsdiq edilmiş büdcəsində nəzərdə tutulmasa da, nazirlik tərəfindən təyinat dəyişikliyi edilərək 5 federasiya və 1 idman məktəbi üzrə ayrılmış xərclər smetasında nəzərdə tutulmayan ümumilikdə 435,1 min manat vəsaitin ayrılması təmin edilib!

Yaxud, aydın olurdu ki, gənclər siyasətinin həyata keçirilməsi məqsədilə müxtəlif mövzular üzrə layihələrin və tədbirlərin icrası zamanı ilin sonuna istifadə edilməmiş vəsaitin dövlət büdcəsinə geri qaytarılmaması məqsədilə avans məbləği ilə bağlı tələblərə əməl edilməyib, müqavilə şərtlərinin dəyişdirilməsi, son nəticədə, ayrılmış vəsaitin nəticəliliyinin və təyinatının müəyyənləşdirilməsi imkanlarını məhdudlaşdırıb. Layihələrin və tədbirlərin həyata keçirilməsinə hazırlıq prosesində tələblərin düzgün müəyyənləşdirilməməsi, eləcə də mövcud potensialların dəyərləndirilməməsi səbəbindən daha baha qiymətlərin tətbiq olunması vəsaitlərin artıq istifadəsi ilə nəticələnib, bir neçə halda düzgün iddiaçının seçilməməsi layihələr üzrə öhdəliklərin üçüncü tərəfə ötürülməsinə səbəb olub. Qeyd edilənlər isə bu istiqamətdə təkcə bir il ərzində 310,7 min manat artıq vəsaitin istifadəsinə yol açıb!

Yerli medianın yazdığına görə, yoxlamalar dərinləşdiriləcəyi və genişləndiriləcəyi təqdirdə istər 2020-ci ildən öncə, 2020-ci ildən sonrakı müddətdə İ.Babayevin kurasiya etdiyi istiqamətlərdə daha böyük məbləğlərlə müşahidə olunan nöqsanların aşkarlanması, ən müxtəlif adlarla, səbəblərlə külli miqdarda yeyintiyə yol verildiyini ortaya qoyan halların müəyyən edilməsi qaçılmaz görünür.

Hələlik isə maraq doğuran Hesablama Palatasının Baş Prokurorluğa müraciəti əsasında aparılacaq araşdırmaların necə yekunlaşacağıdır. Müraciətə gətirib çıxaran qanunsuzluqda sabiq nazir müavininin məsuliyyəti müəyyən edilərsə, bunun İ.Babayev üçün hüquqi müstəvidə kifayət qədər başağrısı yarada biləcəyi istisna olunmamalıdır.

Xatırladaq ki, İntiqam müəllim 2000-ci ildən 2021-ci ilin noyabrına qədər tutduğu nazir müavini postunu itirdikdən sonra Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri təyin edilib. Lakin o, həmin vəzifədə çox işləməyib. Cəmi 8 ay sonra müdir postundan ayrılıb, ardınca isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində məsul vəzifəyə təyinat alıb. Belə ki, 2023-cü ilin əvvəllərində İ.Babayev bu dəfə adıçəkilən idarədə Aparat rəhbəri vəzifəsinə gətirilib.

O da maraqlıdır ki, nazir müavini vəzifəsindən azad edildikdən sonra İntiqam müəllimin fəaliyyəti ilə bağlı mediada kifayət qədər tənqidi materiallar dərc olunub, Hesablama Palatası birbaşa onun kurasiya etdiyi sahələrlə bağlı ciddi pozuntular aşkarlayıb, lakin Babayev bütün bunlar barədə danışmaq ehtiyacı duymayıb. Niyəsini eks-nazir müavininin özü daha yaxşı bilər, lakin unudulmamalıdır ki, Azərbaycan cəmiyyətində susmaq yalnız "qızıl" deyil, eyni zamanda ünvanına söylənilən hər hansı iddia, hər hansı ittiham ilə razılaşmaq əlaməti sayılır.

Bunu elə-belə, sözgəlişi xatırlatdıq...

***Toğrul Əliyev***

# Qalmaqallı uşaq evinin direktoru işdən çıxarıldı



***Xətai rayonu 3 nömrəli Uşaq evinin direktoru Məhbubə Hüseynova işdən çıxarılıb.***

"Unikal" xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbərinin və məsul əməkdaşlarının uşaq evinin kollektivi ilə görüşü zamanı bu vəzifəyə Gülnarə Şəmiyeva təyin edilib.

Xatırladaq ki, Məhbubə Hüseynova ondan şikayət edən yeniyetmə ilə arasında yaranan qalmaqalla bağlı gündəmə gəlmişdi.

# Ordumuz "Smerç" raketlərindən döyüş atışları etdi

***Cari ilin döyüş hazırlığı planına əsasən, Raket və Artilleriya Qoşunlarının bölmələrində döyüş atışlı taktiki təlimlər keçirilib.***

"Unikal" xəbər verir ki, plana uyğun olaraq bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ərazidə açılma, atəş mövqelərinin tutulması və texnikanın döyüşə hazır vəziyyətə gətirilməsi üzrə tapşırıqları yerinə yetiriblər.

Real döyüş şəraitinə uyğun keçirilən təlimlərdə bölmələr "Smerç" reaktiv yaylım atəşi sistemi və "DANA" özüyeriyən haubitsalardan nümunəvi döyüş atışları icra ediblər.

Şərti düşmən hədəflərinin sərrast atəşlə məhv edildiyi təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Təlimin keçirilməsində əsas diqqət komandir heyətinin çevik qərar qəbuletmə qabiliyyətinin, bilik və bacarıqlarının təkmilləşdirilməsi, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsi, eləcə də şəxsi heyətin səhra vərdişlərinin və praktiki vərdişlərinin artırılmasına yönəlib.

# "AzərEnerji"dən Cəbrayılla bağlı maraqlı layihə



***Azərbaycan-Türkiyə-Avropa Ölkələrarası Enerji Layihəsi çərçivəsində tikintisi yekunlaşmaqda olan 330 kilovoltluq "Cəbrayıl" Qovşaq yarımstansiyası "AzərEnerji" tərəfindən işğaldan azad olunan ərazilərdə tikilən ən böyük enerji obyekti olmaqla bərabər, həm də ətraf mühitə xüsusi töhfə verən enerji obyekti olması ilə fərqlənəcək.***

"Unikal" xəbər verir ki, "Cəbrayıl" Enerji Qovşağının ətrafında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq iri miqyaslı ağacəkmə və bağsalma aksiyası keçirilib.

Ermənilər tərəfindən xarabalığa çevrilən Cəbrayılda 15 min ədəd xurma və zeytun ağacı əkilib. Xüsusi damlama sistemi qurulub, artezian vurulub, 200 kubmetr su hovuzu və su nasos stansiyası tikilib.

Ulu Öndərin yaşıllaşdırma ənənəsinə sadiq qalmaq məqsədi ilə həyata keçirilən ağacəkmə aksiyasının həm də böyük qayıdışla bilavasitə bağlılığı var. Xüsusi olaraq qeyd edək ki, 16 hektar ərazidə 14 min ədədi xurma ağacından ibarət böyük meyvə bağı bərabər şəkildə burda işləyəcək əməkdaşlar arasında bölünəcək.

Onu da nəzərinizə çatdıraq ki, "Cəbrayıl" Enerji Qovşağında 16 əməkdaş çalışacaq ki, onların da hamısı məhz cəbrayıllılardır. Böyük qayıdış siyasətinə uyğun olaraq 16 cəbrayıllının burada işi və yarımstansiyanın inzibati binasında qalmaq yeri ilə yanaşı, həm də hər birinin bir hektarlıq meyvə bağı da olacaq.

Xatırladaq ki, "AzərEnerji" tərəfindən bu günə kimi, işğaldan azad edilən ərazilərdə 25-ə yaxın enerji obyekti tikilib və 170 nəfər yerli sakin məskunlaşma siyasətinə uyğun olaraq öz rayonunda işlə təmin edilib.



# Nazirlikdən valideynlərə çağırış - Pul istəsələr...

***"Uşaq bağçalarında valideynlərdən pul tələb edilməsi halları olarsa, aidiyyəti üzrə müraciət edilməsi xahiş olunur. Çünki bu kimi faktlarla qarşılaşdıqda ona dərhal reaksiya veririk".***

"Unikal"ın xəbərinə görə, bunu Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev deyib.

Qurum rəsmisi bildirib ki, bu kimi hallarla bağlı nazirliyə müraciətlər olur və məsələ operativ şəkildə araşdırılır.

1-5 yaşlı uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlb olunması 35 % təşkil edir.

Elnur Əliyevin sözlərinə görə, göstəricilərin 2026-ci ilə qədər 50 %-ə çatdırılması planlaşdırılır.

Uşaq bağçalarında çalışan tərbiyəçi-müəllimlərin sertifikasiyadan keçirilməsi ilə bağlı Elm və Təhsil Nazirliyində işlərə başlanılıb.

Bunu Elm və Təhsil Nazirliyinin Məktəbəqədər təhsilin təşkili və idarə olunması sektorunun müdiri İlahə Rəsulova deyib.

Nazirlik rəsmisinin sözlərinə görə, bununla bağlı müvafiq normativ sənədlərin hansı formada hazırlanması müəyyənləşməlidir: "Bu istiqamətdə nazirlikdə işlərə başlanılıb. Hədəf 2026-cı ilədək bütün tərbiyəçi-müəllimlərin sertifikasiyadan keçirilməsidir".

# 1700 bağça yoxlanıldı, ciddi problemlər aşkarlandı



***Elm və Təhsil Nazirliyinin tabeliyindəki 1700-ə yaxın bağçada monitorinq aparılıb.***

Bu barədə Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev məlumat verib.

O, bağçalarda infrastruktura bağlı ciddi problemlər aşkarlandığını, bəzi bağçaların təmirə ehtiyacı olduğunu bildirib.

Nazirlik rəsmisinin sözlərinə görə, qeydiyyatdan keçib bağçaya gəlməyən uşaqlarla bağlı yeni qaydalar hazırlanır. Belə ki, qeydiyyatdan keçən, ancaq bağçaya gəlməyən uşaqlar bağçadan çıxarılacaq.

Elnur Əliyev, həmçinin Bakı, Sumqayıt və Abşeronda əhali sıxlığına görə kifayət qədər bağça olmadığını vurğulayıb.

# Kişi arvadını gözəllik salonunda öldürdü

***Dünən saat 12:40 radələrində paytaxtın Binəqədi rayonu Rəzulzadə qəsəbəsində gözəllik salonlarından birində 1986-cı il təvəllüdlü Aygün Qərib qızı Yusifovanın kəsici-deşici alətlə qətl yetirilməsi barədə polisə məlumat daxil olub.***



DİN-in mətbuat xidmətindən "Unikal"a bildirilib ki, cinayət əməlini şəxsi münasibətlər zəminində törətməkdə şübhəli bilinən qadının həyat yoldaşı 1980-ci il təvəllüdlü İsrafil Dursun oğlu Yusifov polisə gələrək təslim olub.

Araşdırma aparılır.

# İcra başçılarının növbəti fiaskosu

## Uşaq bağçaları yerli icra hakimiyyətlərinin nəzarətindən niyə çıxarılıb? - İlginc təfərrüatlar

***Aprelin 14-də Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev media nümayəndələri üçün keçirilən seminarda diqqətçəkən açıqlama ilə çıxış edib. O bildirib ki, nazirliyin tabeliyindəki 1700-ə yaxın bağçanın monitorinqi aparılıb.***

Monitorinq zamanı isə infrastrukturla bağlı ciddi problemlər aşkarlanıb. Sitat: "Bəzi bağçaların əsaslı təmirə ehtiyacı var. Bir çox bölgələrdə bağça ehtiyacları da var. Bu ehtiyacları müəyyənləşdirib müvafiq işlər aparmağı düşünürük. Həmçinin araşdırmalarımız göstərdi ki, bir çox tərbiyəçinin ciddi təlimlərə ehtiyacı var, tədrislə bağlı resurs qıtlığı müşahidə edilir. Bu nəticələrlə bağlı Nazirlikdə həm qısamüddətli, həm də uzunmüddətli həllər işlənib hazırlanıb".

Xatırladaq ki, 20 dekabr 2021-ci ildə Prezident dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb. Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib.

Yada salaq ki, sözügedən təhsil müəssisələri 2011-ci ildən yerli icra hakimiyyəti orqanlarının tabeliyinə verilmişdi.

Bağçalarda aparılan monitorinqin nəticələri isə icra başçılarının onlarla bağlı fəaliyyətinin sözün tam mənasında fiasko ilə nəticələndiyini ortaya qoyub. Belə görünür, şəhər və rayon rəhbərləri bu müəssisələrlə bağlı 12 il ərzində nəinki müsbət hər hansı işə imza atmayıblar, əksinə uşaq bağçalarının çoxsaylı problemləri həmin 12 ildə daha da dərinləşib, ağırlaşıb.

Əslində bunu ötən müddətdə məktəbəqədər təhsil müəssisələri barədə tənqidlərin, iradların intensivləşməsi də təsdiqləyirdi. Məsələn, uşaq bağçalarında qidadan zəhərlənmə halları, az qala, adiləşmişdi. Buna əsas səbəblərdən biri sözügedən müəssisələrdə təhsil alanlara verilən qidaların köhnə, vaxtıkeçmiş, yaxud yerli-dibli keyfiyyətsiz olmasıydı. Həmçinin uşaq bağçalarına qəbulda rüşvət amilinin önə çıxması, yaxud bu müəssisələrdə təlim-tərbiyə səviyyəsinin aşağı olması, azyaşlılara qarşı zorakı davranış da cəmiyyətdə və mediada müzakirə edilən əsas məsələlərdən biri idi.

Bir sözlə, aşkar görünürdü ki, uşaq bağçalarının fəaliyyəti ilə bağlı çoxsaylı problemlər var və bu müəssisələr vaxtilə icra hakimiyyətlərinin tabeliyinə verildikdən sonra müsbətə doğru ciddi dəyişikliklərdən danışmaq çətindir. Elə bu səbəbdən, həmçinin təhsilin sistemliliyi baxımından uşaq baxçalarının yenidən Təhsil (hazırkı Elm və Təhsil) Nazirliyinin tərkibinə qaytarılmalı olduğuna inananların sayı durmadan artırdı. Nəticədə ötən il bu, reallaşdı. Hərçənd, şəhər və rayon icra hakimiyyətləri belə bir qərarın verilməsini qətiyyən arzulamırdılar, çünki onların bir çoxu uşaq bağçalarına daha çox qazanc yeri kimi baxırdılar...

Sonuncu faktoru Hesablama Palatasının audit yoxlamaları da təsdiqləyirdi. Məsələn, 2021-ci ildə adıçəkilən qurum Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasına dair auditin nəticəsini açıqlamışdı. Məlum olmuşdu ki, bəzi körpələr evi-uşaq bağçalarının istiliklə təmin olunması mənzil-kommunal sistemi tərəfindən həyata keçirildiyi halda,onların ştat cədvəllərində ocaqçı ştatına pul xərclənib, daha doğrusu, pul silinib. Yaxud, uşaqlara verilməsi nəzərdə tutulmayan məhsullar üçün də eyni qayda ilə pul siliblər. Və ya: normalarda yaş qrupundan və müəssisədə qalma saatından asılı olaraq, cəmi verilməli çörəyin miqdarı "buğda çörəyi I növ" və "buğda çörəyi II növ" normasına uyğun verilməli olduğu halda, Normaların tələblərinə əməl edilməyərək, hər iki növ çörəyin əvəzinə yalnız "buğda çörəyi I növ" verilib, nəticədə isə artıq xərcə qol qoyulub. Habelə məktəbəqədər təhsil müəssisələri və uşaq evləri üzrə qida rasionunda nəzərdə tutulmamış əlavə 3 adda (sümüksüz mal əti, banan və zeytun yağı üzrə) olmaqla, ərzaq məhsullarının alışı həyata keçirilib. Bu da külli miqdarda vəsaitin havaya sovrulmasından başqa bir şey deyil...

Ümumiyyətlə, bir sıra rayonlarda uşaq bağçalarının bəzi yerli məmurlar üçün "yeyinti yeri"nə çevrildiyinin çoxsaylı sübutları vardı və bütün bunlar adıçəkilən müəssisələrin yerli icra hakimiyyətlərinin tabeliyinə verilməsinin hər hansı müsbət dəyişikliyə gətirib çıxarmadığını ortaya qoyurdu. Elm və Təhsil Nazirliyinin 1700 bağçada apardığı yoxlamada çoxsaylı nöqsanların aşkarlanması bunu təsdiqlədi, mənzərənin qətiyyən ürəkaçan olmadığını meydana çıxardı.



İcra başçılarının bu fiaskosu həm də Azərbaycanda şəhər və rayon icra hakimiyyətlərinin yeni dövrün prinsipləri ilə işləməkdə çətinlik çəkdiyini göstərir. Belə faktlar, eyni zamanda, sözügedən qurumların ləğvi ilə bağlı cəmiyyətdə, mediada səsləndirilən, deputatlar, ekspertlər tərəfindən dilə gətirilən ləğvetmə təklifini də aktuallaşdırır. Bir daha aydın olur ki, özlərini sovet dövrünün "raykom"ları kimi aparan icra hakimiyyətlərinin səlahiyyətlərinin böyük ölçüdə yerli özünüidarə orqanlarına verilməsi daha məntiqlidir...

***Toğrul Əliyev***

## 5.3.9. azərbaycançılıq ideyasının təbliği;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycançılıq ideyası milli amala çevriləndə...

## Vüqar Rəhimzadə: "Üçrəngli bayrağımızın yenidən bərpa olunması məhz Heydər Əliyevin rəhbərliyi dövründə reallaşıb".



***Milli ideologiyasız heç bir millət ayaqda dura bilməz! Azərbaycan xalqını da illərdir ayaqda saxlayan, onun milli kimliyi, milli maraqları, qoruyub yaşatdığı milli-mənəvi dəyərləridir. Xalqımızın əsrlərdir nəsildən-nəsilə ötürdüyü milli dəyərlər sistemi azərbaycançılıq ideyasının əsas xəttini təşkil edir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilk dəfə azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərsələr də, Xalq Cümhuriyyətinin tezliklə süqut etməsi bu işi yarımçıq qoydu.***

Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini qoruyaraq azərbaycançılıq ideologiyasını dövlət siyasəti səviyyəsinə qaldırdı.Ulu öndərin uzaqgörənliyi, milli təəssübkeşliyi sayəsində xalqımız bu gün azərbaycançılıq ideyası ətrafında sıx birləşib.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Ulu Öndər bununla bağlı qeyd edirdi ki, milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılmasına və inkişafına xidmət etməlidir.

Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə "Unikal"a bildirib ki, Azərbaycançılıq ideologiyasının təbliği Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə həyata keçirilən siyasətin ana xəttini təşkil edib. Onun sözlərinə görə, bu dövrlərdə azərbaycançılıq ideologiyası vahid prinsip olub: " Ulu Öndərimiz Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik şəxsiyyətdir. O, harada olmasından asılı olmayaraq millətini sevirdi. Heydər Əliyev istənilən görüşdə Azərbaycanı yüksək səviyyədə təmsil edərək müdafiə edib. Üçrəngli bayrağımızın yenidən bərpa olunması məhz Heydər Əliyevin rəhbərliyi dövründə reallaşıb".

V. Rəhimzadə qeyd edib ki, dünya azərbaycanlılarının birləşməsi Heydər Əliyevin böyük səyi nəticəsində mümkün olub. O, qeyd edib ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən əsas amildir.

"Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən ilk növbədə onun azərbaycançılıq ideologiyasının formalaşdırılması və təbliği göz önünə gəlir. Ulu öndər Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsinin vacibliyini daim qeyd edirdi. Dahi şəxsiyyət qeyd edirdi ki, Azərbaycanın müstəqilliyini, suverenliyini daimi etmək üçün harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarından bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşmək tələb olunur. Ona görə də onun "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" çağırışı hər bir azərbaycanlının həyat amalına çevrildi. Beləcə ümummilli lider milli birlik rəmzinə çevrilən dünya azərbaycanlılarının həmrəyliyini təmin etdi".

V. Rəhimzadə onu da bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul edildi: "Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndər həmrəylik gününü təsis etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə müvəffəq oldu. Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqənin qurulmasında, onlar arasında birlik və həmrəyliyin yaradılmasında mühüm rol oynayır. Ümummilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra diaspor quruculuğu dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. Bu gün prezidentimiz bu siyasətə söykənərək Azərbaycanı bütün sahələrdə uğura aparır. Azərbaycanın bütün sahələrdə inkişafı bu siyasətlə bağlıdır".

V. Rəhimzadə onu da vurğulayıb ki, Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəyliyinə, xalqın vahid bir ideya ətrafında mənəvi birliyinə nail olunmasında Prezident İlham Əliyevin xüsusi xidmətləri var. Məhz İlham Əliyev sayəsində milli-mənəvi və bəşəri dəyərlər artıq azərbaycançılıq ideologiyasının özəyini, onun əsas təməl prinsiplərini təşkil etməkdədir.

Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycançılıq fəlsəfəsi bizim mənəvi dayağımızdır. Müstəqil siyasət, milli maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq - budur bizim uğurlarımızın əsas şərtləri. Azərbaycanda bütün xalqlar qardaşlıq şəraitində yaşayırlar. Mən çox şadam ki, qısa bir zaman çərçivəsində bizim əsas ideoloji dayaqlarımız daha da möhkəmlənib. Azərbaycanda vətəndaş həmrəyliyi, sabitlik tam bərqərar olub. Bizim siyasətimizin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır. Biz bu işdə böyük uğurlara nail olmuşuq. Bizim bütün siyasətimiz, bütün siyasi addımlarımız bir məqsəd güdür. Bu da Azərbaycanın və azərbaycançılığın daha da möhkəmlənməsi, güclü iqtisadi potensialın yaradılması, siyasi islahatların dərinləşməsi və Azərbaycan xalqının təhlükəsizlik şəraitində, rifah içində yaşamasıdır".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Bosniya və Herseqovina mediası Azərbaycanla bağlı silsilə məqalələr yayımlayıb

***Bosniya və Herseqovina KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə rəsmi səfəri ərəfəsində Azərbaycanla bağlı silsilə məqalələr yayımlayıb.***

Nüfuzlu media qurumlarında yayılan informasiyalarda Prezident İlham Əliyevin geniş tərkibli nümayəndə heyəti ilə Bosniya və Herseqovinaya səfəri iki ölkə arasında əlaqələrin daha da zənginləşməsi üçün dəyərli imkan kimi qiymətləndirilib.

"hayat.ba" saytında yayımlanan məqalədə Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlıq potensialından tam istifadə etmədiyi təəssüflə qeyd olunub. Məqalədə Azərbaycanın son onilliklərdə enerji ixracı sahəsində təsirli iqtisadi artıma nail olmuş ölkə kimi dəyərləndirilib. Bildirilib ki, bu artım öz növbəsində Azərbaycanın geosiyasi imkanlarını gücləndirib. Yazıda, həmçinin Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya səfərinin hər iki ölkəyə böyük fayda gətirəcək əməkdaşlığın yeni dövrünü açacağı qeyd edilib.

"etto.ba" saytında dərc edilən məqalədə Prezident İlham Əliyevin bu səfərinin ölkələrimiz üçün mühüm əhəmiyyəti qeyd olunub. Azərbaycanın iqtisadi və siyasi yüksəlişi Bosniya və Herseqovinanın ölkəmizlə daha dərin əlaqələr qurması üçün əsas səbəblərdən biri kimi göstərilib. "Azərbaycan sübut edir ki, ağıllı xarici siyasət hətta kiçik ölkələr üçün də manevr imkanları açır", - deyə məqalədə vurğulanıb.

"Intelektualno.com", "Balkannews.ba" saytları da Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri ərəfəsində ölkələrimiz arasındakı əlaqələrdən, tarixi oxşarlıqlardan bəhs edən məqalə yayımlayıb. Bildirilib ki, 1990-cı illərin əvvəllərində hər iki ölkə Avropadakı siyasi dəyişikliklərin nəticəsi olan oxşar problemlərlə üzləşdi. Azərbaycan SSRİ-nin, Bosniya və Herseqovina isə Yuqoslaviyanın parçalanmasından sonra ölkənin dərin böhrandan çıxarılaraq inkişaf yoluna qədəm qoyması üçün genişmiqyaslı tədbirlər görmək məcburiyyətində qaldı. Lakin Azərbaycan bunu daha sürətlə edə bildi. Əlbəttə ki, bunun üçün əsas amillərdən biri Azərbaycanın ildən-ilə artan iqtisadi gücü oldu.

"TRT" televiziyasının Balkan versiyasında, "Slobodnabosna.ba" və "Politicki.ba" saytları da Bosniya və Herseqovina ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrindən bəhs edən məqalələr yayımlayıb. Məqalələrdə Bosniya və Herseqovina ilə Azərbaycan arasında əməkdaşlığın hər iki ölkənin potensialını tam əks etdirmədiyi, daha yüksək nəticələrin əldə oluna biləcəyi vurğulanıb. Yazılarda Bosniya və Herseqovinanın Azərbaycan üçün investisiyalar baxımından geniş potensiala malik ölkə olduğu diqqətə çatdırılıb.

"Klix.ba" saytında isə Prezident İlham Əliyevin səfərinin hər iki ölkə üçün nə kimi yeniliklər gətirəcəyi barədə müsahibə yayımlanıb. Tarixçi, beynəlxalq əlaqələr üzrə professor Yahjo Muhasiloviç Bosniya və Herseqovina ilə Azərbaycan arasındakı əlaqələrdən, iki ölkə arasında əməkdaşlıqdan, enerji məsələlərindən və bu səfərin ölkələrimiz üçün açacağı imkanlardan danışıb. O bildirib ki, Azərbaycan öz regionunda bir gücdür və gələcəkdə beynəlxalq arenada daha vacib amil olacaq. Buna görə də Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlığı çox vacibdir. Həmçinin diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin səfəri layihələrin və investisiyaların artırılması üçün geniş imkanlar açır.

"Oslobodjenje.ba" saytında yayımlanan məqalədə də Azərbaycan Prezidentinin Bosniya və Herseqovinaya səfərindən, müzakirə oluna biləcək məsələlərdən bəhs edilib. Bildirilib ki, səfər zamanı aparılacaq müzakirələrdə iqtisadi və enerji sahəsində əməkdaşlığa xüsusi diqqət yetiriləcək.



## “AzInTelecom” Azərbaycanın rəqəmsal transformasiyasını sürətləndirir

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan “AzInTelecom” MMC-nin rəsmi nümayəndəsi Bakıda keçirilən “Dayanıqlı inkişaf üçün texnologiyalar: Dördüncü Sənaye İnqilabı texnologiyaları və bulud həlləri” tədbirində iştirak edərək şirkətin təqdim etdiyi məhsul və xidmətlər barədə ətraflı məlumat verib.***

“Unikal” xəbər verir ki, “AzInTelecom” MMC-nin İdarə heyəti sədrinin müşaviri Sadiq Yolçuyev çıxış edərək şirkətin Azərbaycanın və region ölkələrinin dövlət qurumları ilə birgə həyata keçirdiyi layihələr və əməkdaşlıq prosesləri haqqında danışıb. Bildirib ki, “AzInTelecom” MMC dövlət qurumları və özəl müəssisələr üçün elektron və rəqəmsal imza, informasiya təhlükəsizliyi xidmətləri, ödəniş sistemi, sertifikatlaşdırma, beynəlxalq səs trafiki, IMEI qeydiyyat və bulud əsaslı müxtəlif xidmətlər təqdim edir: “Dizaynı və inşası TIER3 - beynəlxalq dayanıqlılıq standartlarına cavab verən Data mərkəzlərimizdə dövlət və özəl təşkilatlara bulud və informasiya texnologiyaları xidmətləri təqdim edirik. 2022-ci ildə isə eyni standartlara cavab verən və eyni sertifikatlara malik olan Yevlax Data Mərkəzi inşa edilərək istifadəyə verilib.

“AzInTelecom” MMC dövlətə məxsus Data mərkəzləri üzərindən tətbiq edilən bulud texnologiyaları əsasında dövlət qurumlarının “Hökumət buludu”na miqrasiyasını həyata keçirir. Cənab Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanının icrası məqsədilə bu günədək rəqəmsallaşma prosesini tamamlayan və miqrasiyaya hazır olan 93 dövlət qurumunun informasiya sistemlərinin tam və ya qismən miqrasiyası yekunlaşdırılıb.

Hazırda “AzInTelecom” MMC “Hökumət buludu”nun təhlükəsizliyinin gücləndirilməsi üçün şəbəkə sisteminin təkmilləşdirilməsi məqsədilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə işlər həyata keçirmək istiqamətində danışıqlar aparır”.

Sadiq Yolçuyev qeyd edib ki, təxminən bir il əvvəl “AzInTelecom” MMC tərəfindən bulud, açıq açar və üztanıma texnologiyalarına əsaslanan yeni nəsil gücləndirilmiş rəqəmsal imza - SİMA yaradılaraq vətəndaşların istifadəsinə verilib: “Artıq SİMA mobil tətbiqi 300 mindən çox istifadəçi tərəfindən yüklənilib. Yaxın günlərdə sahibkarlar üçün SİMA rəqəmsal imzanın istifadəyə verilməsi nəzərdə tutulur. “AzInTelecom” MMC həyata keçirdiyi innovativ layihələr, təqdim etdiyi məhsul və xidmətlər çərçivəsində Azərbaycanın və regionun dördüncü sənaye texnologiyalarının tətbiqi ilə rəqəmsal transformasiyasını sürətləndirməkdə davam edir”.

S.Yolçuyev vurğulayıb ki, “AzInTelecom” MMC bulud xidmətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə qabaqcıl ölkələrin təcrübəsini daim öyrənir və bu istiqamətdə həyata keçirilən işlərdən biri olaraq 2022-ci ilin avqust ayında “Bulutistan” şirkəti ilə memorandum imzalanıb. Memoranduma əsasən, bulud həllərinin Azərbaycanda və regionda inkişafı üzrə birgə əməkdaşlıq fəaliyyəti nəzərdə tutulur.

# Ulu Öndər: Dahi şəxsiyyət, əvəzolunmaz lider



***Ümummilli lider Heydər Əliyev Azərbayan tarixinin ən önəmli şəxsiyyətlərindən biridir. Ulu Öndər Azərbaycanı parçalanmaqdan xilas edən, dövlətin suverenliyinin itirilməsi təhlükəsini aradan qaldıran əvəzolunmaz lider idi.***

Təsadüfi deyil ki, müasir dövlətçilik sistemimizin mükəmməl siyasi-ideoloji, iqtisadi və mənəvi dayaqlar sisteminin yaradılması məhz Ulu Öndərin adı ilə bağlıdır.

Xatrladaq ki, 1969-cu ildən başlayaraq 2003-cü ilə qədər davam edən zaman kəsiyi “Azərbaycan tarixinin Heydər Əliyev dövrü” kimi səciyyələndirilir. Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə xilasedici qayıdışı - 1993-cü ilin 15 iyunu “Azərbaycan xalqının Milli Qurtuluş Günü” kimi hər il təntənə ilə qeyd edilir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, həqiqətən də, çox mürəkkəb, çətin bir şəraitə təsadüf etdi. Yəni, həmin dönəmdə müstəqil dövlətçiliyimiz həlledici bir dövrünü yaşayırdı. Amma onun vaxtında həyata keçirdiyi strateji inkişaf strategiyası müstəqil dövlətçiliyimizin qorunub möhkəmlənməsində müstəsna rol oynadı. Və bu strateji xəttin əsas istiqamətlərindən biri də vahid komandanlıqdan idarə edilən nizami ordunun yaradılması idi. Axı müstəqilliyimizin ilk illərində Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı, Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmişdi. Belə çətin şəraitdə, döyüşlər getdiyi bir vaxtda nizami ordunun yaradılması olduqca çətin idi. Amma Ulu Öndər çox qısa vaxt ərzində bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardı. Bu gün fəxrlə deyirik ki, müasir müstəqil Azərbaycan, həmçinin Silahlı Qüvvələrimiz ulu öndər Heydər Əliyev dühasının, onun misilsiz xidmətlərinin bəhrəsidir.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixindən sonrakı nailiyyətlərdir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Mayın 10-da Ümummilli Liderin anadan olmasının 100-cü ildönümü tamam olcaq. Prezident İlham Əlyevin 2023-cü ili “Heydər Əliyev İli” elan etməsi Ümummilli Liderin həyat və fəaliyyətinin, dövlətçiliyimiz qarşısında xidmətlərinin öyrənilməsi və təbliği baxımından çox vacib addımdır. Ulu Öndərimizin doğum gününü hər il xalqımız və dövlətimiz böyük təntənə, milli bayram səviyyəsində qeyd edir. Əlbəttə ki, bu da səbəbsiz deyil. Çünki müasir Azərbaycanın tarixi Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişi xalqımızın yaddaşına möhtəşəm tərəqqiyə dönüş anı, şərəfli bir tarixin başlanğıc günü kimi həkk olunub.

Bu gün Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ən başlıcası Heydər Əliyev irsi, dahi rəhbərin ölməz ideyaları insanların şüuruna möhkəm həkk edilib. Bu gün hər birimiz Ulu Öndərimizin ideyalarına sadiq olmaqla müstəqilliyimizin daha da möhkəmlənməsinə dəyərli töhfəmizi əsirgəmirik. Azərbaycan bütün sahələrdə inkişaf edir, beynəlxalq layihələrin iştirakçısıdır, möhkəm siyasi və hüquqi dövlətçilik strategiyasına malikdir.

Ali Baş Komandan İlham Əliyev Şuşanın azadlığı ilə bağlı danışarkən “mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim”- ifdəsini şərh etməyə yəqin ki, ehtiyac yoxdur. Ümummilli Liderimizin uzaq perspektivə hesablanan və dövlətimiz, xalqımız üçün həyati əhəmyyət kəsb edən strategiyasının bəhrəsi bu gün hər kəs tərəfndən hiss olunur.

Dünya çapında şəxsiyyət olan Ulu Öndərin irsi Azərbaycanın milli sərvətidir. Dünya, Azərbaycan və xalqımız var olduqca Ulu Öndər də əbədi yaşayacaq!

Allah rəhmət eləsin. Dərin hörmət və ehtiramla anırıq.

***Ağdaş Rayon Statistika idarəsinin rəisi***
***Arif Qurbanov***

# Ruhumun şəhid məzarındakı əksi

***Şəhid məzarları and yerimizdir. Müqəddəs qanları torpağa qarışan şəhidlərimizin cisimlərinin qarışdığı məzar yeri qəlbimizdəki şəhid məzarı ilə eynidir. Hər şəhid məzarını ziyarət edərkən qəlbimdən bir parçanı ziyarət etmiş kimi oluram. Bu ziyarətimin də asan olmayacağını bilirdim.***

Mən Qazi ata ilə və Şəhid oğul ilə şəkillərdəki məzar daşlarından doğmalaşmışdım. Mən qəhrəmanlarımın qəhrəmanlıqlarına valeh olmuşdum. İllərlə qəhrəman ata və oğulun məzarını ziyarət etməyi arzu etmişdim. Allah o ziyarətin ilkini mənə ötən il iyul ayında qismət etmişdi. Bir ziyarətlə ürəyim dinclik tapmamışdı. Yenə də arzularımın önündə o məzarları ziyarət etmək dururdu. O arzumun gerçək olduğu gün.

Dilimin əzbəridir Naxçıvan torpağı. Hər qarışı şəhid qədər əziz, şəhid qədər müqəddəsdir. Naxçıvanın demək olar ki, hər qarışını sətirlərimdə vəsf etmişəm. Cəhri torpağını da həmçinin. Mən Cəhri torpağını yetirdiyi qəhrəmanları ilə tanımışam. O torpağa qədəm qoyduğumda sanki ürəyim köksümə sığmırdı. İllər öncə Rasim Məmmədovun şəhid tabutu çıxan qapıdan içəri addım atmaq mənim üçün kəlmələrin izah edə bilməyəcəyi qədər dərin duyğular yaşatdı. Bu evin hər nöqtəsində gözlərim sanki şəhidimi görürdü. Onlarla insan olsa da gözlərimi qapıya dikib sanki Rasimin içəri girəcəyini gözləyirdim. Ancaq acı gerçəklə özümü xəyal dünyasından çıxarmağa çalışırdım. Yeddi il öncə Rasim Məmmədov o qapıdan əbədi olaraq çıxmışdı. Cəhri qəsəbəsində bir təpədə bayraq kölgəsində ucalan iki məzar daşını gördüyümdə xəyal dünyasından ayıldım. Nazilə ananın "Baxın bu iki qəhrəman mənim qürurum və həsrətimdir" sözlərini duydum. Heç bilmirəm o məzarın önündə neçə damla göz yaşı tökdüm. Bircə onu bilirəm ki, bir zamanlar Rasim Məmmədovla eyni məktəbdə təhsil alan hərbçilərə baxdıqca gözlərim yaz yağışı tökdü. Axı bir zamanlar Rasim Məmmədovun da o hərbçilər sırasında idi. İndi şəhidlər sırasında öndə dayanıb. Əlində də bayraq. Həm də Lələtəpəyə sancılan bayraq. Yenə düşüncələrim bu dünyadan ayrılıb Rasimin cənnət dünyasına getmişdi ki, qəfil Azərbaycan Respublikasının Dövlət Himninin sədası ilə yerimdən sıçradım. Himnin hər sətri şəhidlərimizin sevgilərinin, son nəfəslərinin izahı idi. Bir anda gözlərim qara yaylıqlı şəhid analarının gözlərinə sataşdı. Nə yalan deyim mən o anaların gözlərinə baxmaqdan utanıram. O gözlərdən oğul həsrəti boylanır. Heç bilmirəm o anlar necə ötdü. Bircə onu bilirəm ki, məzardan ayrılmaq istəmirdim. Məzar başından ayrılan sonuncu insanlardan biri oldum.

Bir şəhid adının əbədiləşdirilməsinə şəhid olmaq məni həddindən ziyadə duyğulandırdı. Məmmədovlar ailəsinin inşa etdirdiyi bulağın açılışına toplanan hər kəsin duyğuları demək olar ki, bənzər idi. Ancaq mənim duyğularım tam ayrı idi. Çünki Qazi Əbdül Məmmədovun, Şəhid Rasim Məmmədovun adları ilə yanaşı mənim sətirlərim də o bulaqda həkk olunmuşdu. "İKİ DAMLA GÖZ YAŞI" şeirimi bulaqda oxuduqca bilmirəm qəlbimə neçə damla yaş axdı. Və müəllif: Manya Səxavətqızı. Görəsən mən bu dəyərə layiq görüləcək nə etdim?

Məzar ziyarətində və bulağın açılışında bir çox insan fikirlərini bölüşdü. Rasim kimi bir oğulu vətənə bəxş edən, Qazi xanımı, Şəhid anası Nazilə Məmmədova, Şəhid qardaşı, Qazi oğlu Şahin Məmmədov, "Qisasçı" ləqəbi ilə tanınan şəhid övladı Asim Məmmədov, Şəhid atası Mayis əmi, Şəhid anaları Rəna ana, Həqiqət ana, Əlahiddə Ümumqoşun Ordunun nümayəndələri, Rasim Məmmədovun silahdaşları, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Ağdam Rayon İcra Hakimiyyətinin müavini Xəqani Nəzərov, Xanı dayı, qazi Ceyhun Bayramov, şəhidimizin əmisi Süleyman Məmmədov çıxış edərək şəhidlərimiz, qəhrəmanlarımız haqqında, ərsəyə gətirilən işin önəmi barəsində ətraflı danışdılar. Sonuncu çıxışı etmək mənim üzərimə düşdü. Heç bilmirəm o çıxışı necə etdim. Bircə onu bilirəm ki, ruhumla qəhrəmanlarıma sarıldım. Nə qədər yazsam da mən o anları izah edə bilməyəcəyimi düşünürəm.

Mən 5 aprel 2023-cü ildə Rasim Məmmədovun məzarı önündə ürəyimdən bu sözləri keçirdim.

İllərdi adını sətirlərlə oxşadığım şəhidim, bu ildönümündə məzarını oxşamaq nəsibim oldu. Sən mənim dilimin tükənməyən şəhid sözü, qəlbimin tükənməyən vətən sevgisisən şəhidim. Sən olmadığın dünyada hələ də səndən öyrənirik. Vətəni sevməyi, vətən üçün ölməyi öyrənirik müqəddəsim. Məzarın önündə ürəyimin döyüntüsü özümü kar etdikcə sadəcə "Şəhidim ruhumu duy" deyirəm. İkinci dəfə ziyarətində olsam da hələ də qəlbimin, ruhumun səsini sənə çatdıra bilməmişəm. Bizim Şahin qardaşla bu şərəf yolunu birlikdə addımlamağımızın səbəbkarı sən oldun. Biz bu yoldan dönmərik. Bizim andımız sənin vətən andın kimi pozulmazdır Rasim Məmmədov. "VƏTƏN FƏDAİLƏRİ" layihəsi olaraq vətənə fəda olan şəhidlərin adlarını hər zaman yaşadacağıq.

Məmmədovlar ailəsinin ocağından ömrümün sonuna qədər unutmayacağım xatirələr topladım. Duyğunun hər rənginin var olduğu xatirələr.

***MANYA SƏXAVƏTQIZI***





# Rayonlarda suvarma və bəndvurma işləri görülür

***Saatlıda 60000 hektara yaxın əkin sahəsi suvarılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, ötən il Saatlı rayonunda 18514 hektar taxıl, 16930 hektar yem bitkiləri, 13020 hektar pambıq, 252 hektar qarğıdalı, 2649 hektar bostan-tərəvəz və 66 hektar silos qarğıdalı əkilib.***

Əkilən kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması Saatlı Suvarma Sistemləri İdarəsi tərəfindən həyata keçirilib. Yuxarıda qeyd edilən sahələri ümumi uzunluğu 1400 km-dən artıq olan suvarma kanalları, 2000 ədəddən artıq sayı olan hidrotexniki qurğu, 63 ədəd nasos aqreqatı və digər köməkçi vasitələrlə suvarma suyu ilə təmin edir. İdarə rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etməklə yanaşı, heyvandarlıq təsərrüfatlarını, başqa köməkçi təsərrüfatlarını da su ilə təmin edir. Saatlı rayonu ərazisinin 17856 hektara qədər sahəsi mexaniki üsulla, yəni nasos stansiyaları vasitəsilə su ilə təmin edilir, bu iş 63 ədəd nasos aqreqatı olan 48 ədəd nasos stansiyaları vasistəsilə yerinə yetirilir.

Saatlı Suvarma Sistemləri İdarəsi tərəfindən 2022-ci ildə 94 ədəd hidrotexniki qurğu, 2 ədəd xidməti bina, 9 ədəd nasos stansiyası, 7 km nov kanal və 5 km istismar yolu cari təmir edilib. Eyni zamanda ötən il ümumi uzunluğu 707 km olan suvarma kanallarında 1900 min m?-dən artıq mexanizmlə lildən təmizlənmə işi görülüb. Belə ki, Smadakənd, Əliabad, Məmmədabad, Əlisoltanlı, Varxankənd, Qarala, Məzrəli kəndlərində və digər kəndlərdə suvarma kanalları lildən təmizlənib. Ümumiyyətlə görülən kompleks meliorativ tədbirlər nəticəsində rayon ərazisində suvarma yaxşılaşdırılıb.

Qeyd edək ki, Saatlı Suvarma Sistemləri İdarəsi 60000 hektara yaxın suvarma şəbəkəsi ilə əhatə olunmuş sahəyə xidmət edir. Hazırda idarə yeni suvarma mövsümü üçün hazırlıqlarını yekunlaşdırıb.

Qubada Qudyalçayın rayon ərazisindən keçən hissəsində bəndvurma işlərinə başlanılıb. Dilqəm Şərifov bildirib ki, ölkəmzin ən böyük meyvəçilik rayonlarından biri də Qubadır. Bu rayonda 18 min hektardan artıq meyvə bağı mövcuddur. Fermerlər tərəfindən hər il yeni bağ sahələri salınır. Heç kəsə sirr deyil ki, istər bağçılıq istərsə də əkinçilik sahəsinin inkişafı ilk növbədə suvarma suyundan asılıdır. Qarşıdan gələn suvarma mövsümündə fermerlərin heç bir çətinlik yaşamadan sahələrini rahat şəkildə suvarması üçün Quba Suvarma Sistemləri İdarəsi tədbirlər görülür. Təsərrüfat sahiblərini fasiləsiz suvarma suyu ilə təmin etmək məqsədi ilə torpaq kanallar lil və kol-kosdan təmizlənir eləcə də hidrotexniki qurğular cari təmir edilir.

Mövsüm ərzində hər hansı çətinliyin yaranmaması üçün Quba Suvarma Sistemləri idarəsi tərəfindən sahilbərkitmə işləri də aparılıb. Bu da öz növbəsində suvarma suyundan səmərəli şəkildə istifadə etməyə imkan verir. Həçminin Qudyalçayın rayon ərazisindən keçən hissəsində bəndvurma işlərinə başlanılıb.

Quba Sistemləri İdarəsindən verilən məlumata görə, son illər iqlim dəyişikliyi ilə əlaqədar şimal bölgəsindəki çaylarda suyun həcminin azalması müşahidə edilir. Bu da öz növbəsində yay aylarında suvarma suyuna olan tələbatı ödəməkdə müəyyən çətinliklər yaradır. Lakin tezliklə respublika ərazisində tikiləcək 10 su anbarının 3-ü Qubada inşa olunacaq. Bununlada yaşanan çətinlik tamailə aradan qalxacaq. Belə ki, qış aylarında anbara toplanan sudan yaz və yay aylarında suvarma məqsədi ilə istifadə ediləcək. Qeyd edək ki, Quba rayonunda 26 min 33 hektar suvarılan torpaq sahəsi mövcuddur. Sahələrin suvarma suyuna olan tələbatı rayon ərazisindən keçən dağ çaylarından eləcədə 58 ədəd subartezian quyusundan qaldırılan su heabına ödənilir.

***Hüseyn***



## ABŞ bununla bağlı Ermənistana xəbərdarlıq etdi

***ABŞ Maliyyə Nazirliyi Rusiya Federasiyasına qarşı tətbiq edilən sanksiyalarla bağlı Ermənistan tərəfinə xəbərdarlıq edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, ABŞ-ın maliyyə nazirinin birinci müavini Adevale Adeyemo Ermənistanın baş nazirinin müavini Mher Qriqoryan ilə Vaşinqtonda görüşüb.

Onlar Ermənistandakı son iqtisadi hadisələri müzakirə ediblər. Həmçinin, görüşdə Adeyemo İrəvanın anti-Rusiya sanksiyalarından yayınmasına diqqət çəkib.

Xatırladaq ki, Vaşinqton Ermənistan şirkətlərinə qarşı ixrac məhdudiyyətləri tətbiq edib.

## "Azərbaycanla bəzi ərazilərdə sərhədçilər xidmət edir" - Mirzoyan

***Azərbaycanla sərhəddə hərbçilərin sərhədçilərlə əvəzlənməsi münaqişəni nəhayət həll etməyə və yeni eskalasiya ehtimalını azaltmağa imkan verəcək.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib.

O qeyd edib ki, artıq bəzi ərazilərdə sərhədçilər xidmət edir:

"Və təcrübə göstərir ki, ordu hissələrinin yerləşdiyi bölmələrlə müqayisədə toqquşmaların baş vermə ehtimalı daha azdır".

***Gülayə***

## İranın keçmiş prezidenti siyasətə qayıdır - Seçkilərdə iştirak edəcək

***İranın keçmiş prezidenti Həsən Ruhani 2024-cü ildə ölkədə keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə "Tasnim" agentliyi məlumat yayıb.

Mlumata görə, sabiq dövlət başçısı yenidən aktiv siyasətə qayıtmaq qərarına gəlib

Qeyd edilir ki, siyasətçi həmçinin bir sıra görüşlər keçirəcək, xüsusən də ölkənin xarici siyasət yolu ilə bağlı sualları cavablandıracaq.

***Ağarza Elçinoğlu***

## Saakaşvili Polşada mükafata layiq görüldü

***Gürcüstanın hazırda həbsdə olan keçmiş prezidenti Mixail Saakaşviliyə Polşanın mərhum prezidenti Lex Kaçinskinin şərəfinə təsis edilən Promethean Mükafatı verilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Novosti-Georgia" məlumat dərc edib.

Mükafat Saakaşvilinin anası Giuli Alasaniya və onun dostu, fransız yazıçısı və jurnalisti Bernard Henri Leviyə təqdim olunub.

"Oun Polşada və ya başqa ölkədə müalicəsi üçün əlimizdən gələni edəcəyik. Biz bunun baş verməsi üçün Gürcüstan hökumətinə təzyiq göstərməyə davam edəcəyik", - deyə Avropa Parlamentinin üzvü və Polşanın keçmiş xarici işlər naziri Anna Fotıqa mükafatlandırma mərasimində bildirib.

Polşa Prezidenti Andrey Duda mükafat laureatlarına təbriklərini çatdırıb.

***Ağarza***

# "Qüvvələrimizi bütün sərhəd xətti boyunca geri çəkməyə hazırıq" - Paşinyan



***Sərhəd vəziyyətinin siyasi qiymətləndirilməsi baxımından hesab edirəm ki, bir gün əvvəl Aİ-nin yaydığı mesaj mühümdür, burada 1991-ci il sərhəd xətti vurğulanır, burada söhbət Ermənistan və Azərbaycan arasında mövcud olan inzibati sərhəd xəttindən gedir. 21 dekabr 1991-ci ildə Almatı bəyannaməsi ilə dəyişdirilmiş SSR dövlət sərhədidir. Aİ-nin bəyanatında bu sərhədə hörmət edilməli olduğu vurğulanıb.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

"Bəyanatda vəziyyətin sabitliyinin etibarlı təminatı kimi hər iki tərəfin silahlı qüvvələrinin sərhəddən təhlükəsiz məsafəyə çıxarılması vurğulanır. Xüsusi vurğulamağı zəruri hesab edirəm ki, Ermənistan 1991-ci ildə Ermənistan-Azərbaycanın bütün sərhəd xətti boyunca belə bir tədbir görməyə hazırdır. Biz bununla bağlı 2021-ci ildən hazır olduğumuzu bildirmişik və belə bir hərəkət Praqa və Soçi razılaşmalarının məntiqinə uyğundur", - deyə Baş nazir qeyd edib.

***Ağarza Elçinoğlu***

# "Minsk Qrupunun işi dondurulub" - ATƏT sədri




***"ATƏT-in Minsk Qrupunun işi hazırda dondurulub, lakin müvafiq şəraitdə ondan istifadə etmək olar".***

"Unikal" "Hraparak" nəşrinə istinadən xəbər verir ki, bunu ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani bu gün İrəvanda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla keçirdiyi mətbuat konfransında bildirib.

O qeyd edib ki, ATƏT Minsk Qrupunu dəstəkləyir və təşkilat onun işi ilə bağlı bəzi tərəflərin fərqli fikirləri, eləcə də dəyişmiş geosiyasi şərait, həmsədrlər arasında münasibətlərin dinamikası və birgə işin olmamasından xəbərdardır.

"Minsk qrupunun işi hazırda dondurulub. Amma mən inkar edə bilmərəm ki, Minsk Qrupunun formatı lazımi şəraitdə lazım ola bilər. ATƏT təkcə Minsk Qrupu deyil, təşkilatın ermənilərlə azərbaycanlılar arasında sülh prosesini dəstəkləmək üçün istifadə edilə biləcək bir çox başqa alətləri və mexanizmləri var", - deyə Osmani bildirib.

***Gülayə Mecid***

# "Sankt-Peterburqdakı partlayışı Ukrayna təşkil edib" - FTX

***Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX), Sankt-Peterburqda aprelin 2-də baş verən partlayışı Ukrayna kəşfiyyatı təşkil edib.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Xatırladaq ki, Sankt-Peterburqda kafedə baş verən partlayışda rusiyalı bloger Maksim Fomin ölüb, 50-dən çox insan yaralanıb. Partlayışda Fominin hədəf alındığı bildirilən açıqlamada "Bu terror aktı Ukrayna xüsusi xidmət orqanları və kəşfiyyatı tərəfindən təşkil edildiyi müəyyən edilib. Onların arasında xaricə qaçan rusiyalı dissidentlər də var. Fomin qətlini Darya Trepova və Ukrayna təxribatçı terror qruplaşmasının üzvü, 1987-ci il təvəllüdlü Yuri Denisov təşkil edib".

Denisovun Ukrayna xüsusi xidmət orqanlarının göstərişi ilə fevral ayında Kiyevdən Latviya üzərindən Moskvaya gəldiyi qeyd edilən açıqlamada "Denisov hadisədən sonra aprelin 3-də dünyasını dəyişib. Denisovun beynəlxalq axtarışa verilməsi ilə bağlı prosesə başlanılıb".

***Gülayə Mecid***

# "Kılıçdaroğlu pulunu verər, TOGG alar" - Ərdoğan



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Kanal D" və "CNN Türk"ün birgə yayımında gündəmlə bağlı sualları cavablandırıb.***

"Unikal" xəbər verir ki, jurnalistin "Kəmal bəyə TOGG hədiyyə etməyi düşünürsünüzmü" sualına Ərdoğan "Kılıçdaroğlu pulunu verər, alar. Onsuz da pulu var" - deyə cavab verib.

O, CHP sədri Kamal Kılıçdaroğluna ölkənin ilk yerli elektrik avtomobili olan TOGG-un hədiyyə edilməyəcəyini bildirib:

"Biz bəyi TOGG-a dəvət etdik. Sənaye nazirimiz sizə fabriki göstərsin dedik. Amma o gəlmədi. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev avtomobilin rəngini belə özü seçib. İlham Əliyev qardaşım da "Anadolu qırmızısı"nı seçdi. Kılıçdaroğlu pulunu ödəyib alar. Nə də olsa, pulu var", - deyə Ərdoğan bildirib.

***G.Mecid***

# Klublar AFFA-dan dövlətin ayırdığı 150 min manatı istəyir - Bəyanat



***Klublar Komitəsi dünən keçirdiyi iclasın yekununa dair bəyanat qəbul edib.***

Bəyanatda deyilir ki, Klublar Komitəsi (KK) AFFA İcraiyyə Komitəsinin 7 mart 2023-cü il tarixində keçirilən iclasında "Futbolun inkişafı ilə bağlı dövlət tərəfindən ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsi" ilə bağlı müzakirə aparıb. Müzakirənin yekununa əsasən, KK bildirir ki, mövsüm ərzində futbolçuların xarici yüksək liqaların birinə transfer olunması və ya icarəyə göndərilməsi (minimum 1 mövsüm) istiqaməti üzrə xərclənməli olan 150.000 manat vəsaitlə bağlı müvafiq meyarlar hüquqi baxımdan tam aydın deyil (məsələn futbolçunun hansı xarici ölkəyə, hansı müddətə transfer və sair.). Qeyd edilib ki, müvafiq meyarların aydınlaşdırılması ilə bağlı mövsüm ərzində KK tərəfindən dəfələrlə məsələ qaldırılmasına baxmayaraq, buna adekvat və aydın izah verilməyib. Həmin 150 min manat vəsaitin verilməməsinin klubların maddi durumuna ciddi neqativ təsir etməsini nəzərə alaraq, KK təkidlə müvafiq vəsaitin aprel ayı ərzində klubların hesabına köçürülməsi məsələsinə baxılmasını xahiş edir.

Bundan başqa, bəyanatda "Qadın futbolunun inkişafı", "Futbol klubunun əvəzedici komandası", "Futbol klubunun regionda filialının, akademiya və ya seksiyasının açılması və onun davamlı fəaliyyəti" istiqamətləri ilə vəsaitlərin xərclənməsi ilə bağlı klublar ciddi problemlərin olmasını AFFA İcraiyyə Komitəsinin diqqətinə çatdırıb. Məsələn, "Sabah FK" əvəzedici istiqaməti üzrə əvvəlcədən məsələnin aydın olmaması ucbatından əvəzedici komandaların yarışlarında iştirak etməmək barədə qərar qəbul etmiş və sonradan müvafiq istiqamət üzrə vəsaitin ayrılması həmin klubu idman inkişafına neqativ təsir edib. Qadın futbolu və regionda seksiyaların açılması kimi istiqamətlər də klublar üçün gözlənilməz qərar olmaqla yanaşı, futbolun ümumi inkişafı baxımından yetərli qədər əsaslandırılmış kimi görünmür. KK təkidlə xahiş edir ki, xüsusilə son iki istiqamət (qadın futbolu və regional seksiya) üzrə vəsaitlərin ayrılmasının məqsədəuyğunluğu ilə bağlı məsələ növbəti mövsüm üçün ciddi şəkildə müzakirə predmeti olsun.

Qeyd edək ki, qeyd olunan vəsait dövlət tərəfindən hər kluba mövsüm ərzində ayrılan 3 milyon manata daxildir.

# Ançelotti: "Qarşıda hələ 90 dəqiqə oyun var"

***"Real"ın baş məşqçisi Karlo Ançelotti Çempionlar Liqasının 1/4 finalında "Çelsi"yə 2:0 hesabı ilə qalib gəldikləri ilk oyunu şərh edib.***



O, qarşıda cavab matçının olduğunu xatırladıb: "Unutmayın ki, "Çelsi" yaxşı oyunçuları olan güclü komandadır. Qarşılaşmadan 2:0 hesabı ilə qalib gəldik və üstünlüyə malikik. Amma hələ heç nə bitməyib. "Stemford Bric"də mübarizə aparmalıyıq. Bu, Çempionlar Liqasının 1/4 finalıdır. Biz növbəti oyuna hazır olmalıyıq. Mən futbolu çox yaxşı bilirəm. Futbolçularım başa düşürlər ki, qarşıda hələ 90 dəqiqə oyun var. Çətin olacaq".

Qeyd edək ki, bu komandalar arasında cavab görüşü aprelin 18-i keçiriləcək.

# Pioli: "Hər şey qarşıdadır"

***"Milan"ın baş məşqçisi Stefano Pioli Çempionlar Liqasının 1/4 finalında "Napoli"yə qalib gəldikləri ilk oyun (1:0) haqda danışıb.***



Qol.az xəbər verir ki, mütəxəssis qələbə qazanmaqlarına baxmayaraq, komandaların yarımfinal şanslarının bərabər olduğunudeyib:

"Belə gözəl gecəni azarkeşlərlə bölüşə bildiyim üçün çox xoşbəxtəm. "Milan"ın tarixi Çempionlar Liqasındakı qələbələrlə doludur. Lakin son illərdə geri qalırdıq.

Matça yaxşı başlamadıq və "Napoli"yə bizə problem yaratmaq imkanı verdik. Lakin sonda "Napoli"yə qarşı son 3 il ərzində ilk evdə qələbəmizi qazandıq. Ancaq bu hekayənin yalnız yarısıdır.

Mən hələ oyun başlamazdan əvvəl fikirləşirdim ki, şanslar bərabərdir. İlk matçdan sonra da belə düşünürəm.

Əvvəlcə bir az bəxtimiz gətirdi, amma diqqətimizi itirmədik. Təəssüf ki, son 10 dəqiqədə ikinci qolu vura bilmədik. Amma hər şey hələ qabaqdadır".

Qeyd edək ki. bu komandalar arasında cavab oyunu aprelin 18-də keçiriləcək.

# Qurban Qurbanova doğum günü sürprizi



***Peşəkar Futbol Liqası (PFL) "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun 51 yaşı tamam olması münasibətilə video hazırlayıb.***

Qısa filmdə təcrübəli mütəxəssislə yanaşı, böyük qardaşı Maarif Qurbanov, həmçinin, bir neçə yaxınının fikirlərinə yer verilib.

Qurban Qurbanovun anadan olduğu Zaqatala rayonunun Aşağı Tala kəndində olan PFL əməkdaşları onun həyatı ilə bağlı ailəsinin və qonşularının fikirlərini öyrəniblər.

Eyni zamanda, 51 yaşlı mütəxəssis özü də danışıb. O, ən böyük arzusunun artıq həyata keçdiyini söyləyib: "Son 4-5 ildə məndə bir arzu yaranmışdı ki, "Qarabağ"da olduğum müddətdə torpaqlarımızı geri qaytaraq. Bu həyata keçdikdən sonra yeni arzu haqda fikirləşməmişəm".

# Avrokubokun oyunları bu kanallarda

***Avropa Liqasının və Konfrans Liqasının 1/4 final mərhələsində keçiriləcək ilk matçlarına Azərbaycan, Rusiya və Türkiyə telekanalları vasitəsi ilə açıq yayımla baxmaq mümkün olacaq.***

Qarşılaşmalar aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş etdiriləcək:

**AZƏRBAYCAN**

"CBC Sport"
20:45. "Feyenoord" - "Roma" (Avropa Liqası)
23:00. "Mançester Yunayted" - "Sevilya" (Avropa Liqası)

**TÜRKİYƏ**

TV 8,5
23:00. "Yuventus" - "Sportinq" (Avropa Liqası)

**RUSİYA**

"Matç TV"
20:45. "Feyenoord" - "Roma" (Avropa Liqası)
23:00. "Mançester Yunayted" - "Sevilya" (Avropa Liqası)
"Futbol 1"
20:45. "Gent" - "Vest Hem" (Konfrans liqası)
23:00. "Yuventus" - "Sportinq" (Avropa Liqası)
"Futbol 2"
20:45. "Feyenoord" - "Roma" (Avropa Liqası)
23:00. "Bayer" - "Union" (Avropa Liqası)
"Futbol 3"
23:00. "Lex" - "Fiorentina" (Konfrans Liqası)
"Matç Arena"
23:00. "Bazel" - "Nitsa" (Konfrans Liqası)